## BAKIDA CÜDO ÜZRƏ DÜNYA ÇEMPİONATININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

*Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*

Bakıda, Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer...



Bax səh. 4

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımla görüşüb. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda iştirakına görə Binəli Yıldırıma təşəkkürünü bildirib. Binəli Yıldırımın parlament sədri kimi də ilk rəsmi səfərini Azərbaycana etməsinin önəmini qeyd edən...



Bax səh. 4



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 sentyabr 2018-ci il, şənbə / № 179 (5306). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Azərbaycan parlamenti ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir



*Prezident İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə Milli Məclisdə keçirilən təntənəli iclasda iştirak edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Mali Respublikasının Prezidenti İbrahim Bubakar Keytaya təbrik məktubu göndərib.

### 2018-ci ilin əvvəlindən bəri ölkə üzrə 200-dən çox məktəb tikilib və yaxud təmir olunub

...Respublikamızda təhsil infrastrukturunun müasirləşdirilməsi proqramı çərçivəsində yeni layihə də uğurla icra edilir. Söhbət regionlarda kontingenti az olan təhsil ocaqları üçün modul tipli məktəb binalarının quraşdırılıb istifadəyə verilməsindən gedir. 2017-ci ildə respublikanın 40 rayonunda təxminən beş min şagirdi əhatə edən yüz modul tipli məktəb inşa edilib. Quraşdırılması asan başa gələn modul tipli məktəblərin inşası 2018-ci ildə də davam etdirilir. Cari ildə Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlara əsasən, Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarında 1332 şagird yerlik modul tipli 22 məktəbin, Lənkəran, Lerik...

Bax səh. 8

### Şərqdə ilk demokratik respublikanın parlamentinin 100 illiyi təntənə ilə qeyd olunub



Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib...

Bax səh. 5-6

### Müasir Azərbaycanın qısa dövr ərzində əldə etdiyi nailiyyətlər Cümhuriyyət ənənələrinə sadiqliyin bariz nümunəsidir

Azərbaycan parlamentinin yaradılmasının 100 illiyinə həsr edilmiş təntənəli tədbirin keçirilməsi və burada çoxsaylı dost və qardaş ölkələrin, beynəlxalq təşkilatların nümayəndə heyətlərinin iştirakı özü artıq bir tarixi hadisə kimi qiymətləndirilməlidir. Çünki bu tədbir bir daha Azərbaycanın şanlı və qürurlu tarixinin, dövlətçilik tarixinin, dününinin və bu gününün dünya ictimaiyyətinə...

Bax səh. 7



## MƏRZUQ ƏLİ ƏL-ĞANİM: KÜVEYT VƏ AZƏRBAYCAN HƏR ZAMAN BİR-BİRİNİN YANINDADIR

Sentyabrın 21-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov bu səfərin dövlətlərimiz arasında...

Bax səh. 6

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MÜBARİZ QURBANLI MİNGƏÇEVİRDƏ VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 25-də Mingəçevir şəhərində Ağdaş, Bərdə rayonlarının, eləcə də Yevlax və Mingəçevir şəhərlərinin sakinlərini qəbul edəcək. Qəbul Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində (20 Yanvar küçəsi, 172) saat 11:00-da keçiriləcək.

Qəbula gəlmək istəyən vətəndaşlardan Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinə müraciət etmələri xahiş olunur.

DQİDK-nın bölgə şöbə müdiri: Natiq Əfəndiyev

əlaqə vasitələri: mob: (050) 211-68-89, telefon: (022) 33-6-55-95,

elektron poçt ünvanları: chairman@scwra.gov.az, info@scwra.gov.az, dk-yevlax@scwra.gov.az



## BMT SƏDRİNİN XÜSUSİ MÜŞAVİRİ AZƏRBAYCANDA DİNİ-MƏNƏVİ SAHƏDƏ GÖRÜLƏN İŞLƏR BARƏDƏ MƏLUMATLANDIRILIB

Sentyabrın 21-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda səfərdə olan BMT sədrinin xüsusi müşaviri, Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri...

Bax səh. 6

### Naxçıvanda yeni Asfalt-Beton Zavod Kompleksi istifadəyə verilib



Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni Asfalt-Beton Zavod Kompleksi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki...

Bax səh. 7

### NATO baş katibinin müavini: Azərbaycan NATO-nun etibarlı tərəfdaşıdır

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin...



Bax səh. 6

### "ASAN xidmət" təcrübəsi Uqandada tətbiq olunacaq

Sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Uqanda Respublikasının Dövlət Xidmətləri Nazirliyi arasında...



Bax səh. 6

### Şamaxının Göylər kəndində yeni tibb məntəqəsi istifadəyə verilib

Sentyabrın 21-də Şamaxı rayonunun Göylər kəndində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin təşəbbüsü və Yaponiyanın Azərbaycandakı...



Bax səh. 7

### Bakıda keçirilən cüdo üzrə dünya çempionatının ikinci gününə yekun vurulub

Sentyabrın 21-də Bakıda keçirilən cüdo üzrə dünya çempionatının ikinci günündə 66 kiloqram çəki dərəcəsində kişilər, 52 kiloqram çəki dərəcəsində isə qadınlar tatami üzərinə...



Bax səh. 7

# Azərbaycan parlamenti ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir

## *Prezident İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə Milli Məclisdə keçirilən təntənəli iclasda iştirak edib*







Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xaricdən dəvət olunmuş çoxsaylı qonaqlar iclasda iştirak ediblər.

Dövlətimizin başçısı iclasda nitq söyləyib:

"Hörmətli deputatlar.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Bizim tədbirlərdə iştirak edən bütün xarici qonaqları salamlayıram, onlara "Xoş gəlmisiniz!" deyirəm.

Dörd ay bundan əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etdik. Bu, tarixi hadisə idi. Çünki ilk dəfə idi ki, müsəlman aləmində demokratik respublika yaradılmışdır və Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı yaradan biz olmuşuq.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Ancaq buna baxmayaraq, Azərbaycan Demokratik Respublikası bir çox işləri görə bildi. Dövlət atributları təsis edildi və bu gün bizim dövlət bayrağımız, dövlət himnimiz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş dövlət atributlarıdır. Azərbaycan dili rəsmi dil kimi elan edilmişdir. İyunun 26-da Azərbaycan Milli Ordusu yaradılmışdır ki, bir neçə ay bundan sonra Qafqaz İslam Ordusu ilə birlikdə Azərbaycan Milli Ordusu və könüllülər Bakını işğalçılardan azad etdilər.

Təhsillə bağlı çox önəmli qərarlar qəbul edilmişdir, o cümlədən Bakı Dövlət Universitetinin yaradılması haqqında qərar qəbul olunmuşdur. Gələn il biz Bakı Dövlət Universitetinin 100 illiyini qeyd edəcəyik.

Bir çox qanunlar qəbul edilmişdir, daha doğrusu, 200-dən çox qanun qəbul edilmişdir. Qadınlara səsvermə hüququ verilmişdir. Yəni, qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti böyük işlər gördü. Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, 2018-ci il mənim Sərəncamımla "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir.

Bu il biz Azərbaycanda və bir çox ölkələrdə Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı bir çox önəmli tədbirlər keçirmişik. Azərbaycanda müntəzəm olaraq tədbirlər keçirilir. Onların arasında, əlbəttə ki, 28 May günü ilə əlaqədar keçirilmiş təntənəli tədbirləri xüsusilə qeyd etmək istərdim. Ondan sonra Azərbaycan Milli Ordusunun 100 illiyinə həsr edilmiş möhtəşəm hərbi paradı qeyd etməliyəm. Bir neçə gün bundan əvvəl - sentyabrın 15-də ikinci möhtəşəm hərbi parad keçirilmişdir. Bakının işğalçılardan azad edilməsi günü təntənəli şəkildə qeyd edildi. O gün Qafqaz İslam Ordusu, Azərbaycan Milli Ordusu, könüllülər Bakını işğalçılardan azad etmişlər və Azərbaycan hökuməti iki gündən sonra Gəncədən Bakıya köçə bilmişdir. Bizim tarixi şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz sahiblərinə qaytarılmışdır.

*"Dörd ay bundan əvvəl biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etdik. Bu, tarixi hadisə idi. Çünki ilk dəfə idi ki, müsəlman aləmində demokratik respublika yaradılmışdır və Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı yaradan biz olmuşuq"*

*"Bu ağır, çətin günlərdə Azərbaycan xalqı müdriklik göstərərək yeganə  düzgün addım atmışdır, Heydər Əliyevi hakimiyyətə dəvət etmişdir və bu tarixi addım ölkəmizin müasir tarixində dönüş nöqtəsi idi"*

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı, süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu, onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Bu, tarixi şans, tarixi xoşbəxtlik idi. Çünki Azərbaycan xalqı əsrlər boyu müstəqillik, azadlıq eşqi ilə yaşamışdır. Ancaq uzun illər ərzində başqa dövlətlərin tərkibində idi. 1991-ci ildə ikinci dəfə bizə belə imkan yarandı. Ancaq əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri Azərbaycanda çox böyük fəlakətlərlə müşayiət olunurdu. Ölkə iqtisadiyyatı ağır vəziyyətdə idi, siyasi proseslər vəziyyəti gərginləşdirirdi, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti vüsət alırdı, daxildə çəkişmələr imkan vermirdi ki, Azərbaycan uğurla inkişaf etsin. 1992-ci ildə dövlət çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı və Azərbaycan çox çətin çağırışlarla üz-üzə qalmışdı. 1992-ci ildə hakimiyyətə gəlmiş qüvvələr ölkəmizi uçuruma aparırdı, ölkəmizdə siyasi-iqtisadi böhran dərinləşirdi, Ermənistan işğalçılıq siyasətini genişləndirirdi, torpaqlarımız işğal altına düşürdü, iqtisadiyyat tamamilə iflic olmuşdu və ölkəmizdə vətəndaş müharibəsinə start verildi, qardaş qanı töküldü. Bu ağır, çətin günlərdə Azərbaycan xalqı müdriklik göstərərək yeganə  düzgün addım atmışdır, Heydər Əliyevi hakimiyyətə dəvət etmişdir və bu tarixi addım ölkəmizin müasir tarixində dönüş nöqtəsi idi.

Heydər Əliyevə Azərbaycan xalqının rəğbəti, dəstəyi həmişə çox böyük olmuşdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, O, Azərbaycana sovet dövründə rəhbərlik edən zaman respublikamızın uğurlu inkişafına təkan vermişdi. O vaxt Azərbaycan sovet məkanında 15 respublikadan fərqlənirdi, çünki Rusiyadan başqa cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi. Azərbaycan ən geridə qalmış yerdən Heydər Əliyevin dövründə, 1980-ci illərin əvvəllərində ən qabaqcıl yerlərə çıxmışdır və insanların rifah halı böyük dərəcədə yaxşılaşmışdır. Digər səbəblər isə ağır günlərdə Heydər Əliyevin cəsarətli addımları ilə bağlıdır. 20 Yanvar faciəsindən sonra O, dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti rəsmən pislədi, Kommunist Partiyasından çıxdı və Azərbaycan xalqı Onun simasında liderini gördü. Ondan sonrakı dövr Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Deyə bilərəm ki, bu, müstəqilliyə aparan önəmli addımlardan biri idi.

*"Bundan sonrakı dövrdə Ermənistanın yeni rəhbərliyi bu məsələ ilə bağlı öz siyasətində ciddi düzəlişlər etməlidir. Çünki bu gün Ermənistandan səslənən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir"*

*"İndi də Ermənistanda yaranmaqda olan yeni diktatura rejimi, demək olar ki, eyni siyasəti aparır. Siyasi rəqiblərə qarşı zorakılıq həyata keçirilir, siyasi rəqiblər həbsə alınır, mətbuat nümayəndələrinə qarşı repressiyalar aparılır, mətbu orqanlar bağlanır, dövlət orqanları siyasi rəqiblərinin həbsi ilə bağlı açıq-aşkar göstərişlər verir, bu göstərişləri bütün dünya eşidir"*

*"Bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır"*

Bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi. Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki bizim torpaqlarımız işğal altına düşürdü.

*"Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir"*

Azərbaycana böyük həcmdə sərmayə qoyuluşunun təmin edilməsində Heydər Əliyevin müstəsna rolu var. Dünən biz "Əsrin kontraktı"nın 24-cü ildönümünü qeyd etdik və "Əsrin kontraktı" olmadan Azərbaycanın bugünkü sürətli inkişaf dinamikasını təsəvvür etmək mümkün deyil.

Bu gün Azərbaycan uğurla inkişaf edir və mən bu inkişafda Azərbaycan parlamentinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Bir çox qanunlar qəbul edilmişdir. Demək olar ki, bu qanunlar həyatımızın bütün sahələrini əhatə edir. Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu var. Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər. Parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır. Mən qeyd etməliyəm ki, Azərbaycan deputatları beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iş aparırlar. Bu, Azərbaycan xalqı tərəfindən də qiymətləndirilir, mən də bunu izləyirəm və deməliyəm ki, doğrudan da çox böyük iş aparılır. Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın.

Əlbəttə ki, Azərbaycan deputatlarının fəaliyyətinin əsas istiqaməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya birliyinə, öz həmkarlarına həqiqətlərin çatdırılmasıdır. Mən hesab edirəm ki, bu işdə çox böyük uğurlara nail olmuşuq. Son illərdə bir neçə təşkilat, o cümlədən Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişlər və bu sahədə fəaliyyət davam etdiriləcək. Mən əminəm ki, Azərbaycan parlamenti bundan sonra da həm ölkə daxilində gedən proseslərin sürətləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsinə öz müsbət töhfəsini verəcəkdir.

*"İyirmi il Ermənistana rəhbərlik etmiş rejim çökdü və bu, bir daha onu göstərir ki, onların işğalçılıq siyasəti iflasa uğradı. Eyni zamanda, beynəlxalq təşkilatlar da bu məsələ ilə bağlı gərək ciddi təhlil aparsınlar və özlərinə sual versinlər ki, necə ola bilər, Ermənistanda son müddət ərzində keçirilmiş parlament və prezident seçkilərinə beynəlxalq müşahidəçilər müsbət reaksiya vermişlər"*

*"Bizə qarşı irəli sürülən ittihamlar 100 faiz saxtadır, yalandır, ikili standartlar əsasındadır və siyasi məqsədlər güdür. Onu da bildirməliyəm ki, bu hücumlar, bu ittihamlar bizim siyasi iradəmizə zərrə qədər təsir etmir və etməyəcək"*

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Dağlıq Qarabağ Azərbaycanın əzəli və  tarixi torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Bu torpaqların tarixi toponimləri, tarixi abidələri, bizim milli irsimiz onu göstərir ki, bu torpaqlarda Azərbaycan xalqı əsrlər boyu yaşayıb. Bu gün bu torpaqlar işğal altındadır. Nəinki Dağlıq Qarabağ, onun ətrafında yerləşən yeddi rayon da Ermənistan tərəfindən işğal edilib. Bu torpaqlarda bütün infrastruktur dağıdılıb. Dağıdılmış şəhərlərimizin şəkilləri internetdə dərc edilir, bunu hər kəs görə bilər. Bizim bütün milli sərvətimiz, muzeylərimiz ermənilər tərəfindən talan edilib, tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb. Azərbaycan xalqına qarşı hərbi cinayət törədilib. Xocalı soyqırımı törədilib, bir gecə ərzində ermənilər 600-dən çox günahsız insanı, o cümlədən 100-dən çox qadını, 60-dan çox uşağı vəhşicəsinə qətlə yetiriblər. Bu gün 10-dan çox ölkənin parlamenti Xocalı soyqırımını rəsmən tanıyıb və bu proses bundan sonra da gedəcəkdir.

*"Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar da Ermənistana qarşı heç bir sanksiya tətbiq etmir. Hesab edirəm, bunun vaxtı gəlib çatıb ki, işğalçıya qarşı çox ciddi tədbirlər görülsün və bu, ədalətli olardı"*

Bütün beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər. Onların arasında əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini xüsusilə qeyd etmək istərdim. Bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Ermənistan 20 ildən çoxdur ki, bu qətnamələrə əməl etmir, onlara məhəl qoymur və beləliklə, öz işğalçılıq siyasətini davam etdirir. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar da Ermənistana qarşı heç bir sanksiya tətbiq etmir. Hesab edirəm, bunun vaxtı gəlib çatıb ki, işğalçıya qarşı çox ciddi tədbirlər görülsün və bu, ədalətli olardı. Bu məsələ ilə bağlı biz beynəlxalq təşkilatların fəaliyyət mexanizmlərinə də fikir verməliyik. Əgər dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmirsə, onda əlbəttə ki, bu orqanın nüfuzu o qədər də yüksək səviyyədə ola bilməz. Münaqişənin həllinin bir yolu var. Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızdan çıxarılmalıdır, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və ondan sonra bölgədə sülh yarana bilər. Azərbaycanın ərazi bütövlüyü isə bütün dünya tərəfindən tanınır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

*"Sual olunur, nəyə görə Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatlar reaksiya vermir?"*

Mən hesab edirəm ki, bundan sonrakı dövrdə Ermənistanın yeni rəhbərliyi bu məsələ ilə bağlı öz siyasətində ciddi düzəlişlər etməlidir. Çünki bu gün Ermənistandan səslənən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir. Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından da Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir.

Münaqişəyə, böyük humanitar fəlakətə baxmayaraq, - bir milyondan çox insan bu münaqişədən əziyyət çəkir, -

**davamı 3-cü səhifədə**

# Azərbaycan parlamenti ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir

## *Prezident İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə Milli Məclisdə keçirilən təntənəli iclasda iştirak edib*

əvvəli 2-ci səhifədə



Azərbaycan inkişaf yolundadır, Azərbaycanın inkişafı çox sürətlidir. Ermənistan isə, əksinə, getdikcə daha da zəifləyir. Ermənistanda bu ilin yazında baş vermiş çevriliş əslində göstərir ki, əvvəlki rejim xalqın dəstəyini tam itirmişdir. İyirmi il Ermənistana rəhbərlik etmiş rejim çökdü və bu, bir daha onu göstərir ki, onların işğalçılıq siyasəti iflasa uğradı. Eyni zamanda, beynəlxalq təşkilatlar da bu məsələ ilə bağlı gərək ciddi təhlil aparsınlar və özlərinə sual versinlər ki, necə ola bilər, Ermənistanda son müddət ərzində keçirilmiş parlament və prezident seçkilərinə beynəlxalq müşahidəçilər müsbət reaksiya vermişlər. Məgər onlar bilmirdilər ki, Ermənistanda bütün seçkilər kobudcasına saxtalaşdırılır? Bilmirdilər ki, orada əvvəlki rejimin hörməti sıfıra bərabərdir? Bilirdilər, ancaq hansısa səbəblərə görə göz yumurdular. İndi də Ermənistanda yaranmaqda olan yeni diktatura rejimi, demək olar ki, eyni siyasəti aparır. Siyasi rəqiblərə qarşı zorakılıq həyata keçirilir, siyasi rəqiblər həbsə alınır, mətbuat nümayəndələrinə qarşı repressiyalar aparılır, mətbu orqanlar bağlanır, dövlət orqanları siyasi rəqiblərinin həbsi ilə bağlı açıq-aşkar göstərişlər verir, bu göstərişləri bütün dünya eşidir. Bir dənə də olsun beynəlxalq təşkilat, xüsusilə mətbuatla, media azadlıqları, insan haqları ilə bağlı olan təşkilatlar səsini çıxarmır. Sual olunur, nəyə görə Ermənistanda gedən bu təhlükəli proseslərə beynəlxalq təşkilatlar reaksiya vermir? Bunun arxasında hansı səbəblər var? Bu, çox ciddi araşdırılmalıdır. Biz onsuz da yaxşı bilirik ki, bəzi beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı ikili standartlar siyasəti aparılır. Biz buna öyrəşmişik və buna qarşı mübarizə aparırıq. Bizim mübarizəmiz çox tutarlı arqumentlərlə dəstəklənir. Bayaq qeyd etdiyim kimi, deputatlarımız bizə qarşı aparılan çirkin kampaniyalarla bağlı öz sözlərini tutarlı arqumentlərlə deyirlər. Bizə qarşı irəli sürülən ittihamlar 100 faiz saxtadır, yalandır, ikili standartlar əsasındadır və siyasi məqsədlər güdür. Onu da bildirməliyəm ki, bu hücumlar, bu ittihamlar bizim siyasi iradəmizə zərrə qədər təsir etmir və etməyəcək. Amma Ermənistan açıq-aşkar repressiya siyasətini aparır, medianı boğur, siyasi opponentlərini həbsə alır, baş nazir onların həbsi ilə bağlı göstəriş verir və buna heç bir reaksiya verilmir. Bu, çox düşündürücü məsələdir və hesab edirəm ki, beynəlxalq təşkilatlar bizim bu sualımıza mütləq cavab verməlidirlər. Verməsələr, deməli, onlar bu yeni yaranan diktatura rejimi ilə əlbirdirlər.

> *"Ermənistan işğalçılıq siyasətinə görə böhran, tənəzzül içindədir"*

Ermənistanda gedən proseslərə baxdıqda istər-istəməz müəyyən paralellər meydana çıxır. 1992-ci ildə də Azərbaycanda hakimiyyətə insanlar meydanlardan, küçələrdən gəlmişdilər. Onların heç bir təcrübəsi, siyasi biliyi yox idi. Onlar iqtisadiyyatın nə olduğunu bilmirdilər. Ümumiyyətlə, onlar cəmiyyətdə elementar davranış qaydalarını gözləmirdilər. Nəticədə Azərbaycan xalqı o hakimiyyətə cəmi bir il dözə bildi və ondan sonra onlar siyasi səhnədən birdəfəlik çıxarıldılar. Ermənistanda da biz eyni mənzərəni görürük. Meydanda çığırıb-bağıranlar bu gün yüksək postlara təyin olunur, heç bir təcrübəsi olmayan insanlar bu gün Ermənistanın taleyini həll edirlər. Yeni hökumət tərəfindən atılan addımlar onu göstərir ki, bu adamların heç bir biliyi, hazırlığı yoxdur və bu, nəinki Ermənistan üçün, bölgə üçün böyük təhlükə mənbəyidir. Bir tərəfdən, - mən bunu artıq bir dəfə demişəm, - indiki Ermənistan hakimiyyəti nə qədər çox hakimiyyətdə qalsa, bizim üçün bir o qədər yaxşıdır. Çünki o, mövcud olan problemlərin üstünə problemlər gətirir. Onsuz da Ermənistan işğalçılıq siyasətinə görə böhran, tənəzzül içindədir. Rəsmi statistikaya görə orada yoxsulluq 30 faizə, amma real vəziyyətdə 50 faizə çatır. Kütləvi işsizlik, depopulyasiya, insanların kütləvi şəkildə köçü baş verir. İqtisadi inkişaf üçün heç bir əsas yoxdur. Heç kim investisiya qoymaq istəmir, bazar məhduddur, xarici bazarlara çıxış yoxdur. Bu mövcud problemlər, üstəgəl onların işğalçılıq siyasəti faktiki olaraq əvvəlki kriminal rejimin çökməsinə gətirib çıxardı. Amma biz görürük ki, indi yeni hökumət də eyni yolla getmək istəyir. Bu ağır, çətin vəziyyətdən xilas üçün Ermənistanın yeganə yolu var, o da bizim torpaqlarımızdan çıxmaqdır. Ondan sonra onların inkişafı üçün şərait yaradıla bilər. Əgər onlar işğalçılıq siyasətini davam etdirmək istəyirlərsə, bilməlidirlər ki, bunun axırı olmayacaq. Bunun axırı onlar üçün çox pis olacaq.

> *"Yeni hökumət tərəfindən atılan addımlar onu göstərir ki, bu adamların heç bir biliyi, hazırlığı yoxdur və bu, nəinki Ermənistan üçün, bölgə üçün böyük təhlükə mənbəyidir"*







Baxmayaraq ki, torpaqlarımız işğal altındadır, bir milyondan çox köçkün və qaçqınımız var, Azərbaycan uğurla inkişaf edir və inkişaf üçün çox gözəl perspektivlər var. Dağlıq Qarabağ heç vaxt Azərbaycanın suverenliyindən kənarda heç bir status almayacaq. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməyəcək ki, onun əzəli, tarixi, hüququ torpağı ondan ayrılsın. Qoy, Ermənistan bu xülyalarla yaşamasın. Qoy, Ermənistan rəhbərliyi öz xalqını aldatmasın. Biz bütün imkanlardan istifadə edirik və edəcəyik ki, ərazi bütövlüyümüzü bərpa edək və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Qeyd etdiyim kimi, beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Təkcə BMT Təhlükəsizlik Şurası deyil, BMT-nin Baş Assambleyası, ATƏT, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Bu il Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Tərəfdaşlıq Prioritetləri adlı sənəddə Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü dəstəklənir. Bu, Avropa İttifaqının mövqeyidir. Qonşu dövlətlər bizim ərazi bütövlüyümüzü tanıyır və dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə münaqişə ilə bağlı qətnamələr qəbul etmişdir. Onların hamısı bizim mövqeyimizi müdafiə edir. Yəni, bu, məsələnin beynəlxalq hüquqi tərəfidir. Real həyatda biz nəyi görürük: Ermənistan uğursuz dövlətdir. Əgər bir ölkəni 20 il ərzində kriminal xunta rejimi idarə edibsə, - müstəqilliyi cəmi 26 il olan dövlətdən söhbət gedir, - onda bu dövlətə hansı ad vermək olar? Ancaq uğursuz dövlət. Bu uğursuzluq, əslində, onların işğalçılıq siyasəti nəticəsində olmuşdur. Çünki əgər işğalçılıq siyasəti olmasaydı, onlar Azərbaycanın imkanlarından faydalana bilərdilər. Azərbaycansız bölgədə heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz və getdikcə bizim gücümüz - siyasi çəkimiz, iqtisadi potensialımız, hərbi gücümüz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Bu gün bizim siyasətimiz, - mən bunu bir daha demək istəyirəm, bu, sirr deyil, - Ermənistanı tam təcrid edilmiş vəziyyətə salmaqdır, iqtisadi dayaqlarını, - ona dayaq da demək olmaz, - çökdürməkdir. Nəyə görə? Çünki biz torpaqlarımızı istəyirik. Bizə deyirlər ki, məsələni sülh yolu ilə həll edin. Biz də çalışırıq ki, bunu edək. Amma bunu etmək üçün gərək sənin qarşında adekvat bir tərəf olsun. Biz bu adekvatlığı görmürük. İndi Ermənistanın qeyri-adekvat addımları, hərəkətləri, yüksək kürsülərdən səslənən bəyanatları bu ölkəni daha da ağır vəziyyətə salacaq. Onunla bizim işimiz yoxdur. Amma bu, münaqişənin həlli üçün indi böyük problemə çevrilir.

> *"İndiki Ermənistan hakimiyyəti nə qədər çox hakimiyyətdə qalsa, bizim üçün bir o qədər yaxşıdır"*

> *"Azərbaycansız bölgədə heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz və getdikcə bizim gücümüz - siyasi çəkimiz, iqtisadi potensialımız, hərbi gücümüz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir"*

Ona görə biz bundan sonra da öz siyasətimizi aparacağıq. Bizim iqtisadi potensialımız da artır. İndi Ermənistanla Azərbaycan arasında fərq yerlə-göy qədərdir. Bu gün Azərbaycan iqtisadi cəhətdən inkişafda olan ölkədir, Ermənistan isə yoxsul, başqasının əlinə baxan, ianələrlə dolanan bir ölkədir. Biz, əlbəttə ki, bundan sonra da öz siyasətimizi aparacağıq.

Bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb.

> *"Son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır"*

Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir. O ki qaldı, iqtisadi sahəyə, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,2 dəfə artmışdır və bu artım bu gün davam edir. Təsadüfi deyil ki, cəmi 26 yaşı olan ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Təsəvvür edin, dünyada 200-dən çox ölkə var. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabiliyyətliliyi hesablaması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə, dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq-iqtidar birliyi sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir.

Biz güclü ordu qurmuşuq. Bu il Bakıda iki hərbi parad keçirilmişdir - həm ordumuzun, həm də Bakının işğaldan azad edilməsinin 100 illiklərinə həsr edilmiş paradlar. Paradlarda nümayiş etdirilən imkanlarımız hesab edirəm ki, çox təsirlidir. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və bu, reallıqdır.

> *"Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır"*

Bir sözlə, biz ölkəmizi bundan sonra da bu siyasətlə inkişaf etdirəcəyik. Bu gün biz innovasiyalara, texnologiyalara daha çox üstünlük veririk. Bir neçə gündən sonra Azərbaycan orbitə üçüncü süni peyki çıxaracaq. Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Orbitdə iki peykimiz var, üçüncü də çıxarılır.

> *"Ermənistan uğursuz dövlətdir. Əgər bir ölkəni 20 il ərzində kriminal xunta rejimi idarə edibsə, - müstəqilliyi cəmi 26 il olan dövlətdən söhbət gedir, - onda bu dövlətə hansı ad vermək olar? Ancaq uğursuz dövlət"*

Enerji siyasətimizə gəldikdə, bunun təsiri təkcə ölkəmizdə hiss olunmur, Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır. Biz dənizləri birləşdiririk. Xəzər dənizini neft kəmərləri ilə Qara dənizlə, Aralıq dənizi ilə, Azərbaycanı isə qaz xətti ilə Avropa ilə birləşdiririk. Bu gün həyata keçirilən "Cənub Qaz Dəhlizi" bölgədə ən böyük infrastruktur layihələrindən biridir, ümumi dəyəri 40 milyard dollara bərabərdir. Demək olar ki, bu layihə enerji xəritəsini tamamilə yenidən yaradır.

> *"Cənub Qaz Dəhlizi" bölgədə ən böyük infrastruktur layihələrindən biridir, ümumi dəyəri 40 milyard dollara bərabərdir. Demək olar ki, bu layihə enerji xəritəsini tamamilə yenidən yaradır"*

Əlbəttə ki, Azərbaycan öz coğrafi vəziyyətindən bundan sonra da uğurla istifadə edəcək. Nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz artıq reallıqdır. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Keçməyə də bilərdi, əgər biz bu coğrafiyaya böyük sərmayə qoymasaydıq, əgər qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz olmasaydı. Əgər onun qonşularla münasibətləri yaxşı deyilsə, ölkə necə tranzit ölkəyə çevrilə bilər, bu, mümkün deyil. Ona görə də xarici siyasətimiz daxili vəziyyətimizin daha da yaxşı olmasına hesablanıb. Xarici siyasətimiz, eyni zamanda, Azərbaycanda təhlükəsizliyin təmin edilməsində də mühüm rol oynayır. Azərbaycanda daxildə təhlükə mənbələri yoxdur. Mən bunu dəfələrlə demişəm. Biz özümüzü mümkün olan risklərdən isə öz siyasətimizlə, o cümlədən uğurlu xarici siyasətimizlə qoruyuruq. Eyni zamanda, dünyada təhlükəsizliyə töhfəmiz də getdikcə artır. Təkcə təhlükəsizliyə yox, biz təhlükəsizliyi böyük dərəcədə şərtləndirən insanlararası, dinlərarası dialoqa da böyük töhfə veririk. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. İlk növbədə, bu siyasət bizə lazımdır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri çox rahat, bir ailə kimi yaşayırlar. Eyni zamanda, bu siyasət dünyaya lazımdır. Çünki bu gün dinlərarası məsələlər getdikcə narahatlıq doğurur. Toqquşmalar, anlaşılmazlıq, ayrı-seçkilik, ksenofobiya - bütün bunları biz dünyada görürük. Biz öz siyasətimizi ortaya qoyuruq, öz nümunəmizi göstəririk. Bakıda keçirilən bir çox beynəlxalq tədbirlər ən böyük beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESCO və digər təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

> *"Dünyada təhlükəsizliyə töhfəmiz də getdikcə artır. Təkcə təhlükəsizliyə yox, biz təhlükəsizliyi böyük dərəcədə şərtləndirən insanlararası, dinlərarası dialoqa da böyük töhfə veririk"*

> *"Bu gün Azərbaycan dünya miqyasında multikulturalizmin mərkəzlərindən biri kimi tanınır"*

Biz bu gün parlamentin 100 illiyini qeyd edirik. Yüz il bundan əvvəl, əlbəttə, Azərbaycan parlamenti öz funksiyalarını tam şəkildə icra edə bilmirdi. Biz, əlbəttə, müstəqil dövlət idik, ancaq onu da hamımız bilməliyik ki, 1918-1920-ci illərdə müstəqilliyimiz tam deyildi. Azərbaycan çox zəif bir ölkə idi. Azərbaycan müstəqil həyatda ilk addımlarını atırdı. Ölkə daxilində kifayət qədər çox problemlər var idi. Deyə bilərəm ki, hökumət ölkə ərazisinə tam nəzarət edə bilmirdi. Deyə bilmərəm ki, biz o vaxt beynəlxalq təcriddən tam çıxa bilmişdik. Bizi qəbul etməyənlər də var idi. Biz tarixi yaxşı bilirik. Bu gün isə Azərbaycan dünya xəritəsində bir uğur nümunəsidir. Bu gün Azərbaycan tam müstəqil siyasət aparır. Qeyd etdiyim bütün məsələlər - istər xarici siyasətlə, daxili siyasətlə, iqtisadiyyatla bağlı olan bütün nailiyyətlər bu məqsədə xidmət göstərir ki, bizim müstəqilliyimiz daha da möhkəmlənsin. Müstəqillik təkcə dövlət atributları deyil. Sən müstəqil siyasət apara bilirsən, yoxsa yox? Bunu uğurla apara bilirsən, yoxsa yox? Bu müstəqil siyasət sənə xeyir gətirir, yoxsa yox? Bax, bu suallara cavab verdikdə əminliklə deyə bilərik ki, bu gün tam şəkildə müstəqil siyasət aparan Azərbaycan öz milli maraqlarını tam şəkildə təmin edir. Azərbaycan parlamentinin bu işlərdə önəmli rolu var.

Əziz dostlar, deputatlar, sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun".

* * *

Sonra Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təşkil olunan təntənəli iclasın iştirakçıları xatirə şəkli çəkdiriblər.

Təntənəli iclas işini çıxışlarla davam etdirib.

# Bakıda cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*




Bakıda, Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın tarixi abidələri, idmanın, o cümlədən cüdonun inkişafı, ölkəmizdə keçirilən beynəlxalq idman yarışları ilə bağlı videoçarx nümayiş olunub.



Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer mərasimdə çıxış ediblər.



Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev çıxışında deyib: **"Hörmətli qonaqlar, əziz dostlar, Azərbaycan Cüdo Federasiyasının adından hər birinizi ölkəmizin paytaxtı Bakı şəhərində keçirilən 2018-ci il cüdo üzrə dünya çempionatının açılışı münasibətilə salamlayır, yarış iştirakçılarına uğurlar arzulayıram.**

**Füsunkar təbiətə və qədim tarixə malik Azərbaycan torpağına xoş gəlmisiniz.**

**Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət səviyyəsində göstərilən qayğı gündən-günə artır. Yeni idman kompleksləri tikilir, idmanın maddi-texniki bazası möhkəmləndirilir, bu istiqamətdə böyük layihələr həyata keçirilir. Azərbaycan artıq beynəlxalq qurumların etimadını qazanıb və bir çox mötəbər tədbirlərə yüksək səviyyədə ev sahibliyi edib. 2015-ci ildə birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, eləcə də bir çox idman növləri üzrə ölkəmizdə keçirilmiş Avropa və dünya çempionatları yüksək təşkilatçılıq səviyyəsi ilə dünya idman ictimaiyyətinin dərin rəğbətini qazanıb.**




**Biz ilk dəfə cüdo üzrə dünya çempionatına ev sahibliyi edirik. Bu böyük etimada görə Beynəlxalq Cüdo Federasiyasına dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, bu möhtəşəm tədbir respublikamızda cüdonun daha geniş təbliğ olunması baxımından çox böyük əhəmiyyət daşıyacaq. Artıq deyə bilərik ki, cüdo Azərbaycanda populyar idman növlərindəndir və ölkəmizin bütün bölgələrində cüdo ilə məşğul olurlar.**

**Əmin olduğumu bildirmək istəyirəm ki, Bakı çempionatı idman həvəskarları üçün möhtəşəm bir bayrama çevriləcək. Azərbaycanın cüdo azarkeşləri, ilk dəfə olaraq, dünyanın ən güclü cüdoçularının tatami üzərində mübarizəsini canlı izləmək fürsəti əldə edəcəklər. Şübhə etmirəm ki, çempionatın bütün iştirakçıları bu böyük idman mübarizəsində qazanılan nəticələrdən asılı olmayaraq, Azərbaycandan xoş təəssüratla ayrılacaq, ölkəmiz və xalqımız haqqında xatirələr hər bir cüdoçunun yaddaşında silinməz izlər qoyacaq.**

**Sonda hamınıza unudulmaz anlar, güclü rəqabət və uğurlar arzu edirəm".**

Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer çıxış edərək deyib: **"Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev, hörmətli qonaqlar, xanımlar və cənablar, hörmətli idmançılar və tamaşaçılar.**

**İcazə verin, Beynəlxalq Cüdo Federasiyası adından və ümumiyyətlə cüdo ailəsi adından Azərbaycan Respublikasına bu mötəbər tədbiri gözəl təşkil etdiyinə görə öz təşəkkürümüzü bildirək. Bakıdakı tədbir doğrudan da çox gözəldir, eyni zamanda, dostluq və qonaqpərvərlik bütün iştirakçıları valeh edir. Azərbaycan yalnız yüksək iqtisadi göstəricilərə malik bir ölkə deyil, eyni zamanda, mədəniyyət, idman, incəsənət və digər sahələrə böyük sərmayələr yatıran bir ölkədir. Bir çox mötəbər idman tədbirlərini, Avropa və dünya çempionatlarını təşkil edən, həmçinin bir çox idman layihələrini həyata keçirən Azərbaycan artıq dünyada inkişafa və firavan yaşayışa töhfə verən bir dövlətdir.**

**Hər birinizə bu mötəbər yarışlarda uğurlar diləyirəm. Eyni zamanda, ümid edirəm ki, Bakı şəhərindən zövq alacaqsınız, öz mədəniyyətinizlə yerli mədəniyyət arasında mübadilə aparmaq və qarşılıqlı münasibət qurmaq imkanı qazanacaqsınız. Bütün idmançılara və iştirakçılara, hər birinizə ən xoş arzularımı çatdırmaq istəyirəm".**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cüdo üzrə dünya çempionatını açıq elan edib.

Azərbaycan Respublikasının dövlət himni və Beynəlxalq Cüdo Federasiyasının himni səsləndirilib.

Daha sonra qrafik video elementlərdən ibarət videoçarx nümayiş etdirilib.

Azərbaycanın incəsənət xadimlərinin məxsusi olaraq tədbir üçün hazırlanmış çıxışları təqdim olunub.

Açılış mərasimi məşhur italiyalı müğənni Al Banonun konsert proqramı ilə başa çatıb.

Mərasimin sonunda Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Avropa Olimpiya Komitələrinin sabiq prezidenti, cüdo veteranı Patrik Hikki və dünya şöhrətli müğənni Al Bano ilə çay süfrəsi arxasında söhbət ediblər.

Xatırladaq ki, sentyabrın 27-dək davam edəcək cüdo üzrə dünya çempionatında 125 ölkədən 800-dək idmançı mübarizə aparır. Azərbaycan çempionatda 9 kişi və 6 qadın idmançı ilə təmsil olunur.

# Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımla görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda iştirakına görə Binəli Yıldırıma təşəkkürünü bildirib. Binəli Yıldırımın parlament sədri kimi də ilk rəsmi səfərini Azərbaycana etməsinin önəmini qeyd edən Prezident İlham Əliyev onun yenidən ölkəmizə səfərindən məmnunluğunu bildirib.

Görüşdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu yaxınlarda Azərbaycana səfəri xatırlanıb və Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilən möhtəşəm parad ölkələrimiz arasında dostluğun və qardaşlığın parlaq nümunəsi kimi dəyərləndirilib.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyi bildirilib, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

Görüşdə Milli Məclisin sədri Oqtay Əsədov iştirak edib.

# Prezident İlham Əliyev Beynəlxalq Cüdo Federasiyasının prezidenti ilə görüşüb



Sentyabrın 21-də Bakıda keçirilən cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə cüdo üzrə dünya çempionatının Bakıda yüksək səviyyədə keçirildiyi qeyd olunub. Azərbaycanın mötəbər idman tədbirlərinin mütəmadi olaraq keçirildiyi bir məkana çevrildiyi bildirilib.

Söhbət zamanı Azərbaycanın beynəlxalq idman əməkdaşlığına töhfə verdiyi, ölkəmizdə idmana dövlət səviyyəsində qayğı göstərildiyi bildirilib, Azərbaycan idmançılarının böyük uğurlar əldə etdikləri qeyd olunub.

Beynəlxalq Cüdo Federasiyası ilə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilən görüşdə Azərbaycanın bu qurumun fəal üzvlərindən biri olduğu vurğulanıb, gələcəkdə əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə edilib.

Sonra Mehriban Əliyevaya idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı təqdim olunub.



# Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasın iştirakçıları Ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər



Sentyabrın 21-də Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasın iştirakçıları Fəxri xiyabanda xalqımızın Ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən iclas iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

# Şərqdə ilk demokratik respublikanın parlamentinin 100 illiyi təntənə ilə qeyd olunub






Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

İclası açan Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə hər kəsi təbrik edib. Sədr təntənəli iclasda iştirak etdiklərinə görə xarici ölkələrin parlamentlərinin və beynəlxalq təşkilatların nümayəndələrinə minnətdarlığını bildirib.

Milli Məclisin sədri qeyd edib ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin və onun parlamentinin yaradılması xalqımızın dövlətçilik potensialının yeni tarixi şəraitdə təzahür etməsi və müstəqillik arzusunun reallaşması idi. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlətçilik yolunda atılan inamlı addımlar təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi həyatında yeni səhifə açdı.

Oqtay Əsədov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin siyasi, iqtisadi, sosial, mədəni və hərbi sahələrdə qəbul etdiyi mütərəqqi qanunvericilik aktları bu dövlətin səmərəli fəaliyyətinə şərait yaradıb. **"Şərq aləmində ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətində kişilərə və qadınlara bərabər seçki hüququ təsbit edilib. Azərbaycan parlamenti öz fəaliyyətini demokratik prinsiplər əsasında qurmuşdu. Ölkədə mövcud olan bütün siyasi qüvvələr və cərəyanlar, müxtəlif millətlərin nümayəndələri bu qanunvericilik orqanında təmsil olunub. Azərbaycan Xalq Cümhuriyyəti parlamenti ölkəmizdə dövlətçilik məfkurəsinin və siyasi mədəniyyətin inkişafında mühüm rol oynayıb. Bu parlamentin uğurlu fəaliyyəti sübut etdi ki, Azərbaycan xalqı demokratik prinsiplərə əsaslanan milli dövlət qurmağa qadirdir",** - deyə Milli Məclisin sədri vurğulayıb.

Oqtay Əsədov qeyd edib ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımız böyük böhran və sarsıntılar, erməni işğalı və vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmişdi. 1993-cu ildə Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil dövlətimiz məhv olmaq təhlükəsindən qurtuldu. **"Qeyd etmək lazımdır ki, Ümummilli lider Prezident seçilənədək dörd ay bu parlamentə rəhbərlik edib. 1995-ci ildə Onun rəhbərliyi ilə hazırlanmış Konstitusiya parlamentin formalaşmasına, müasir standartlara uyğun mexanizmlərin yaranmasına dəstək oldu. Demokratiya şəraitində Milli Məclisə indiyədək beş dəfə keçirilmiş azad, ədalətli və şəffaf seçkilər Azərbaycanın demokratik inkişafında mühüm rol oynayıb",** - deyə sədr vurğulayıb.

Oqtay Əsədov diqqətə çatdırıb ki, artıq 23 ilə yaxındır Azərbaycan Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla həyata keçirir. Parlament ölkədə aparılan hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun möhkəm hüquqi bazasını yaradıb və təkmilləşdirib. Parlament beynəlxalq əlaqələrini də çox sürətlə inkişaf etdirir. Milli Məclis on beynəlxalq təşkilatın üzvüdür. Milli Məclisdə 80-dən çox ölkənin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Parlament Konstitusiyada nəzərdə tutulan nəzarət funksiyasını çox uğurla həyata keçirir. Həmçinin Milli Məclis Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məsələsini daim diqqət mərkəzində saxlayır. Azərbaycanda dövlət hakimiyyətinin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq münasibətləri bərqərar olub.

Bildirilib ki, Prezident İlham Əliyev Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq, müasir dünya standartlarına uyğun layihələri hazırlayır və parlamentə təqdim olunmasını təmin edir. Milli Məclisin sədri deyib: **"Prezident İlham Əliyev birinci və ikinci çağırış Milli Məclisin deputatı olub və Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinə rəhbərlik edib. O, Milli Məclisin fəaliyyəti ilə bağlı məsələləri dərindən bildiyinə görə qanunverici orqana çox böyük diqqət və dəstək göstərir. Parlamentə bu münasibətinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.**

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da 12 ilə yaxın müddətdə Milli Məclisin üzvü olub, qanunvericilik bazasının möhkəmləndirilməsində, parlamentin beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak edib. Onun təklifi və dəstəyi ilə dörd amnistiya aktı qəbul olunub".**

Vurğulanıb ki, gündəlik fəaliyyətində Milli Məclis icra və məhkəmə hakimiyyəti orqanları, elm, təhsil və yaradıcılıq mərkəzləri ilə sıx əlaqələr saxlayır. Parlament hakimiyyətin müxtəlif qolları arasında iş birliyini, ölkəmizin strateji inkişaf xəttinin uğurla həyata keçirilməsini təmin edir. Azərbaycan Respublikası XX əsrin əvvəllərində mövcud olmuş Xalq Cümhuriyyətinin, Milli Məclis isə Xalq Cümhuriyyəti parlamentinin varisidir. Azərbaycan parlamentinin 100 illik yubileyi münasibətilə bu gün keçirilən tədbirlər zamanlar arasında canlı əlaqəni təcəssüm etdirir. İnamla söyləmək olar ki, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının yaratdıqları dövlətçilik və parlament ənənələri indiki Azərbaycan dövlətinin və parlamentinin fəaliyyətinə layiqincə dəstək olub.

Bolqarıstan Milli Assambleyasının sədri xanım Tsveta Karayançeva çıxış edərək deyib ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində fəaliyyət göstərib, lakin buna baxmayaraq Azərbaycanın sonrakı tarixində mühüm rola malik olub. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk dəfə kişilərə və qadınlara bərabər seçki hüququ verib və bu kimi bir sıra mühüm mütərəqqi addımlar atıb.

**"Sevindiricidir ki, 100 il sonra müstəqil Azərbaycan öz demokratik inkişaf yolunu davam etdirir, müasir dövlət kimi inkişaf edir",** - deyən Tsveta Karayançeva qeyd edib ki, Bolqarıstan Azərbaycan ilə əlaqələrə xüsusi önəm verir. Ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri qurulub. Azərbaycan və Bolqarıstan parlamentləri arasında qarşılıqlı hörmətə əsaslanan əlaqələr mövcuddur.

Sədr bildirib ki, Azərbaycan və Bolqarıstan beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq edirlər. Bolqarıstan Azərbaycan və Avropa İttifaqı arasında aparılan danışıqlara öz müsbət töhfəsini verir.

Azərbaycanın Avropanın, o cümlədən Bolqarıstanın enerji təhlükəsizliyində mühüm rol oynadığını söyləyən Tsveta Karayançeva deyib: **"Həmçinin qeyd etməliyəm ki, iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün kifayət qədər geniş potensial mövcuddur. Hesab edirəm ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması əməkdaşlığımızın genişləndirilməsi üçün əlverişli zəmin yaradır. Biz enerji, kənd təsərrüfatı, ticarət və digər sahələrdə əməkdaşlığımızı genişləndirə bilərik".**

Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım iclasda çıxış edərək deyib: **"Biz eyni millətin övladlarıyıq. Azadlığımız, əmin-amanlığımız bir-birinə bağlıdır. Sevincimizi və kədərimizi birgə bölüşürük. Ümidlərimiz, xəyallarımız, ideallarımız eynidir. Eyni dildə danışırıq, fikirlərimiz eyni nöqtələrdə birləşir. Biz əcnəbi dövlətlərin adlarını sayanda Azərbaycanı o kateqoriyaya daxil etmirik. Çünki Türkiyə Azərbaycandır, Azərbaycan Türkiyədir".**

Binəli Yıldırım bildirib ki, Azərbaycan və Türkiyə 100 il əvvəl tarix səhnəsindən silinməmək üçün böyük bir mübarizə aparıblar. Yüz il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb. Azərbaycan parlamenti 100 il əvvəl vacib bir vəzifəni icra edib. Bu gün də Azərbaycanın qazandığı uğurlarda parlamentin böyük rolu var. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan böyük inkişaf yolu keçib və iqtisadi nailiyyətlər əldə edib. Bakı küçələrində gəzərkən bu inkişafı görmək mümkündür. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlara imza atıb, bölgədə sülh və sabitliyə mühüm töhfə verib. Türkiyə hər zaman Azərbaycanın yanında olub, onun müstəqilliyini dəstəkləyib. Azərbaycan və Türkiyə bölgədə əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edən mühüm layihələri birgə reallaşdırıblar. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi və bu kimi digər təşəbbüslər əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir.

Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Səncari çıxış edərək bu cür tarixi tədbirdə iştirak etməkdən şərəf hissi duyduğunu deyib. O, Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən olduğunu xatırladıb, parlamentlərarası əlaqələrin indiki səviyyəsini yüksək qiymətləndirib. Vurğulayıb ki, Azərbaycan daim Pakistanın yanında olduğu kimi, Pakistan da daim Azərbaycanın yanında olacaq, onu dəstəkləyəcək. O, Azərbaycan ilə Pakistan arasında bir çox sahələrdə həyata keçirilən əməkdaşlığın yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Belarus Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko deyib ki, bu təntənəli tədbir Azərbaycan xalqının öz Vətəninin tarixinə olan böyük sevgisinin təsdiqidir. Bu tədbir öz həyatlarını Vətənin müstəqilliyinə və inkişafına həsr etmiş Azərbaycanın sadiq oğul və qızlarının, Ümummilli lider Heydər Əliyevlə birgə öz xalqını, ölkəsini parçalanmadan xilas edən, milli iqtisadiyyatı və dövlətçiliyi canlandıran insanların silinməz yaddaşının sübutudur. Bu insanların adına təkcə Azərbaycanda deyil, onun hüdudlarından uzaqda, o cümlədən Belarusda da küçələr, təşkilatlar var. Onlar hər zaman bizim qəlbimizdə yaşayacaqlar. Bu insanlara və onların davamçılarına görə Azərbaycan müstəqil və güclü olub. Bu gün Azərbaycan sabit və dinamik inkişaf edən, yüksək sürətli iqtisadi inkişafı olan dövlətdir. Azərbaycan Avropanın ən vacib enerji və nəqliyyat mərkəzlərindən biridir, dünya ictimaiyyətinin nüfuzlu və bərabərhüquqlu üzvüdür. Azərbaycan Xalq Cümhuriyyəti illərində müəyyən edilən prinsiplərə və görkəmli dövlət xadimi Heydər Əliyevin strategiyasına əsasən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan demokratik yolla əminliklə gedir. Milli Məclisin səmərəli qanunvericilik işi, onun hökumətin digər sahələri ilə məhsuldar qarşılıqlı əlaqəsi bunun üçün vacib hüquqi bazanın yaradılmasını təmin edib. Parlament Azərbaycanın maraqlarını beynəlxalq arenada da uğurla təmsil edir. Belarus dost Azərbaycanın uğurlarına sevinir. Belarus və Azərbaycanın ikitərəfli və çoxtərəfli qarşılıqlı əlaqəsi göstərir ki, bizim ölkələrimizin maraqları ümumilikdə üst-üstə düşür.

Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanim Azərbaycan xalqını parlamentin yaradılmasının 100 illiyi münasibətilə Küveyt xalqı adından təbrik edərək deyib: **"Biz Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq təşkilatlar çərçivəsində daim Küveytin hüquqlarını dəstəkləyən mövqedən çıxış etməsini heç vaxt unutmayacağıq. Azərbaycan hər zaman prinsipial mövqe tutaraq bizi dəstəkləyib. Bunun bariz nümunəsi kimi, BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzü dəstəkləməsini göstərmək olar. Buna görə də hazırda qardaşlarımızın və dostlarımızın əhatəsində olmaqdan şərəf duyuruq".**

İki ölkə arasındakı əlaqələrdən danışan Küveyt Millət Məclisinin sədri qeyd edib ki, Azərbaycan ilə Küveyt arasında son illər siyasi, iqtisadi və mədəni sahələrdə mühüm nailiyyətlər əldə olunub. Ancaq əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanlar var. **"Biz həssas və müstəsna coğrafi mövqeyə malik, Şərq ilə Qərb arasında iqtisadi və mədəni körpü rolunu oynayan Azərbaycan kimi mühüm ölkə ilə əlaqələrin inkişaf etdirilməsində maraqlıyıq. Azərbaycan kimi mühüm dövlətlə əlaqələrin inkişafı müstəsna əhəmiyyət kəsb edir. Hər şeydən öncə Azərbaycan bir çox sahələrdə mühüm nailiyyətlər əldə edən dövlətdir. Sevindirici haldır ki, keçən il Azərbaycana 20 min küveytli səfər edib. Lakin biz bu rəqəmin iki dəfə artırılması əzmindəyik. Bu, iki ölkə arasında ticarət dövriyyəsinə və investisiya qoyuluşuna müsbət təsir göstərəcək. Eyni zamanda, iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın intensivləşdirilməsi əzmindəyik. Bundan başqa, gənclər və idman sahəsində əməkdaşlıq etməkdə maraqlıyıq",** - deyə Küveyt Millət Məclisinin sədri vurğulayıb. O qeyd edib ki, Küveyt Millət Məclisi Azərbaycan Milli Məclisi ilə əməkdaşlığı gücləndirməkdə maraqlıdır. İstər beynəlxalq parlament təşkilatları çərçivəsində, istərsə də parlamentlərarası dostluq qrupları müstəvisində əməkdaşlıq üçün yaxşı imkanlar mövcuddur.

Qırğız Respublikası parlamentinin sədri Dastanbek Cumabekov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması yalnız Azərbaycan xalqının deyil, bütövlükdə regionun həyatında əhəmiyyətli hadisədir. Yüz il bundan əvvəl Azərbaycan xalqı parlamentini yaratmaqla demokratik prinsiplərə sadiqliyini nümayiş etdirib. Yüz il bundan əvvəl Azərbaycanda yaradılan parlament müasir parlamentarizm modeli əsasında fəaliyyət göstərirdi. O deyib: **"Təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərdi. 1920-ci ildə Azərbaycan xalqı öz müstəqilliyini itirdi. Lakin Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan xalqı öz dövlətçilik ənənələrinə sadiq qalaraq müstəqil dövlət yarada bildi. Əlbəttə ki, Azərbaycan xalqının Ümummilli lideri, uzaqgörən siyasətçi Heydər Əliyevin ölkənin müstəqilliyinin qorunub saxlanmasında, inkişafında rolu əvəzsizdir. Məhz Onun səyləri nəticəsində Azərbaycan dövlətçiliyi möhkəmləndirildi, ölkə inkişaf yoluna qədəm qoydu, Konstitusiya qəbul olundu, milli ideologiya formalaşdırıldı, müxtəlif sahələrdə geniş və dərin islahatlar həyata keçirildi. Bütün islahatlarda parlament də fəal rol oynayıb. Belə ki, fəaliyyətini demokratik və qanunun aliliyi prinsipləri əsasında həyata keçirən parlament tərəfindən qəbul olunan qanunlar Azərbaycanın demokratik inkişafı üçün əsaslı zəmin yaradıb".**

Dastanbek Cumabekov qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı ölkə daxilində və xaricdə müxtəlif tədbirlərin keçirilməsi xalqın öz tarixinə verdiyi dəyərin göstəricisidir. Bu gün Azərbaycan xalqı öz ölkəsi və rəhbərliyi ilə fəxr edir, siyasi və iqtisadi müstəqilliyini yüksək dəyərləndirir. Azərbaycanın turizm cəhətdən cəlbedici olması, səhiyyə və təhsil sahələrində inkişaf etməsi və beynəlxalq aləmdəki mövqelərinin möhkəmlənməsi ölkənin inkişafının göstəriciləridir.

Azərbaycan Milli Məclisinin parlamentlərarası əməkdaşlığa önəm verdiyini deyən sədr vurğulayıb ki, Milli Məclis bir çox parlament təşkilatları ilə uğurlu əməkdaşlıq edir.

Qırğızıstan ilə Azərbaycanı ümumi köklərin, dini və mədəni eyniliklərin birləşdirdiyini deyən Dastanbek Cumabekov qeyd edib ki, tarixən xalqlarımız arasında dostluq əlaqələri mövcud olub və bu münasibətlər bu gün də var.

Bəhreyn Nümayəndələr Şurasının sədri Əhməd bin İbrahim Əl-Mulla çıxış edərək Azərbaycan xalqını ölkəsinin rəhbərliyi adından təbrik edib. O, ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin, parlamentlərarası münasibətlərin, təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib. Nümayəndələr Şurasının sədri Azərbaycanda həyata keçirilən milli birliyə əsaslanan siyasəti yüksək qiymətləndirib və ölkəsində də eyni siyasətin həyata keçirildiyini deyib. Vurğulayıb ki, Bəhreyn Azərbaycan ilə hər sahədə əlaqələrin daha da inkişaf etdirilməsində maraqlıdır.

Sədr, həmçinin beynəlxalq və regional münaqişələrin həlli istiqamətində, o cümlədən terrora qarşı mübarizədə Azərbaycan ilə Bəhreyn arasında münasibətlərin dərinləşdirilməsinin vacibliyini qeyd edib.

Cibuti Milli Assambleyasının sədri Məhəmməd Əli Huməd Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin demokratik dəyərlər üzərində qurulduğunu qeyd edib. O vurğulayıb ki, parlamentdə ölkədəki bütün xalqların nümayəndələri təmsil olunublar. Bu parlamentdə çox mühüm qərarlar qəbul edilib.

Son illər Azərbaycanın müxtəlif sahələrdə böyük uğurlar qazandığını bildirən Cibuti Milli Assambleyasının sədri qeyd edib ki, Azərbaycan qloballaşan dünyada məğrur addımlarla irəliləyir. Tarixin çətin sınaqlarından çıxan Azərbaycan bir çox dövlətlər üçün, o cümlədən Cibuti kimi gənc ölkə üçün nümunədir. **"Bir il bundan əvvəl mənim ölkəm Azərbaycan vətəndaşlarının Xocalıda soyqırımına məruz qalması ilə bağlı qətnamə qəbul etdi. Biz qəti şəkildə dost Azərbaycan xalqının sivil əhalisinə qarşı bu qətliamı pislədik. Fikirləşirik ki, hər hansı bir ərazinin silah gücünə tutulması BMT-nin Nizamnaməsinə ziddir. Əminəm ki, Azərbaycan qısa müddətdə ərazi bütövlüyünü bərpa edəcək və bu da beynəlxalq hüququn bütün prinsiplərinə uyğun olacaq",** - deyə Cibuti Milli Assambleyasının sədri vurğulayıb.

Sudan Milli Assambleyasının sədri İbrahim Əhməd Ömər qeyd edib ki, Azərbaycan parlamentinin 100 illiyinin təntənəli şəkildə qeyd olunması böyük məna kəsb edir. Parlament azadlıq, demokratiya, ədalət prinsipləri və insanlar arasında bərabərliyin gücləndirilməsi istiqamətində böyük rola malikdir. Parlament demokratik quruculuğun əsas sütunlarından biridir. Qanunverici orqan, həmçinin dövlət və cəmiyyət arasında əlaqələri müəyyən edən strukturdur. Hesab edirəm ki, Azərbaycanın bu tarixi təntənəli qeyd etməsi qanunverici orqana verilən yüksək qiymət kimi dəyərləndirilməlidir.

Sudanın Azərbaycan ilə yüksək səviyyəli əlaqələrə malik olduğunu söyləyən sədr deyib: **"Ölkəmiz müstəqil Azərbaycan Respublikasını tanıyan və paytaxt Bakıda 1993-cü ildə səfirlik açan ilk dövlətlərdən olub. Sudan Azərbaycan ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir. Ölkələrimizin rəhbərləri arasında təşəkkül tapmış yüksək səviyyəli siyasi dialoq parlamentlərarası əməkdaşlığın layiqli müstəviyə çatdırılmasına müsbət təsir göstərir. Bu tədbirdə iştirakımız parlamentlərarası əlaqələrin inkişafına olan marağımızın və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində parlamentlərin rolunun vacibliyinin bariz nümunəsidir. Parlament diplomatiyası xarici siyasətin ən vacib istiqamətlərindən biri olaraq rəsmi diplomatiyanın güclü yardımçısına çevrilib".**

Sudan Milli Assambleyasının sədri qeyd edib ki, son illərdə ölkələrimiz arasında əlaqələr yüksələn xətt üzrə inkişaf edir. Müxtəlif sahələrdə 16 saziş imzalanıb. Regional və beynəlxalq müstəvidə əməkdaşlığımızı genişləndirmək üçün yaxşı imkanlar var.

ATƏT Parlament Assambleyasının sədri Georgi Tsereteli çıxış edərək deyib: **"Azərbaycanda ilk parlament 100 il bundan əvvəl yaradılıb. Bu tarix Azərbaycan xalqının inkişafa, çiçəklənməyə nə qədər sadiq olduğunu nümayiş etdirir. Biz bu tarixi nəzərdən keçirərkən görürük ki, bu, yalnız tarixi nöqteyi-nəzərdən deyil, gələcək üçün çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması müasir Azərbaycanın yaranmasına, onun güclənməsinə, ölkədə müxtəlif sahələrin inkişafına, ölkənin iqtisadi və maddi suverenliyinin möhkəmləndirilməsinə öz töhfəsini verib.**

**Bu müasir "Alov qüllələri"nin kölgəsində dayandığımız zaman biz Azərbaycan irsini artıq hiss edə, Azərbaycanın müstəqillik tarixində əldə etdiyi nailiyyətləri görə bilərik. Müasir Azərbaycan parlamenti öz sələfinin izi ilə gedərək ölkənin iqtisadi nöqteyi-nəzərdən inkişaf edib regionda vacib bir ölkəyə çevrilməsinə öz töhfəsini verib".**

Rusiya Dövlət Duması sədrinin müavini Sergey Neverov çıxış edərək Dumanın deputatları adından Azərbaycan parlamentinin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, Azərbaycan və Rusiya parlamentləri arasında dostluğun qədim tarixi var. Bu dostluq 1906-cı ildə Rusiya parlamentində başlayıb. Orada Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə müsəlman fraksiyası fəaliyyət göstərirdi. S.Nevorov vurğulayıb ki, müasir dövrdə ölkələrimizin parlamentləri arasında sıx əlaqələr var və bu münasibətlər uğurla inkişaf edir. Parlamentlərimiz arasında dostluq və strateji tərəfdaşlıq barədə sənədlər də imzalanıb.

Dumanın sədr müavini qeyd edib ki, Azərbaycan və Rusiya prezidentləri parlamentlərarası əlaqələrə böyük önəm verirlər. Parlamentarilərimiz də bu dostluğun inkişafına töhfə verirlər. S.Nevorov Azərbaycan və Rusiya deputatlarının müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni sahələrdə ikitərəfli və çoxtərəfli formatlarda uğurla əməkdaşlıq etdiklərini bildirib.

Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərif belə bir təntənəli tədbirdə iştirak etməsindən məmnunluğunu ifadə edərək deyib ki, Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçki hüququ verən ilk müsəlman ölkəsi olub. Həmçinin 100 il bundan əvvəl yaradılan parlamentdə müxtəlif dini və etnik azlıqların nümayəndələri təmsil olunublar. Bu, Azərbaycan Xalq

davamı 6-cı səhifədə

# Şərqdə ilk demokratik respublikanın parlamentinin 100 illiyi təntənə ilə qeyd olunub

əvvəli 5-ci səhifədə

Cümhuriyyətinin demokratik dəyərlərə verdiyi önəmin göstəricisidir.

Azərbaycan ilə Misir arasındakı əlaqələrdən danışan Mahmud Əhməd Şərif qeyd edib ki, xalqlarımız arasında müştərək mədəni dəyərlər, adət-ənənələr var. Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında əlaqələr yeni mərhələyə qədəm qoydu. İki ölkə arasında indiyə qədər 50 sənəd imzalanıb, yüksək səviyyəli qarşılıqlı səfərlər olub. Misir parlamentində Azərbaycanla dostluq qrupu fəaliyyət göstərir.

Qazaxıstan Senatı sədrinin müavini Bektas Beknazarov Azərbaycan parlamentinin 100 illiyinin qeyd olunmasını tarixi hadisə kimi dəyərləndirib, bu münasibətlə təbriklərini çatdırıb.

Azərbaycanın Qazaxıstanın Cənubi Qafqaz regionunda əsas tərəfdaşlarından olduğunu söyləyən Bektas Beknazarov deyib ki, bu yaxınlarda iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 26 illiyi qeyd olunub. İki ölkə arasında münasibətlər inkişaf edir. Qazaxıstan Prezidentinin Azərbaycana 2017-ci ildə rəsmi səfəri zamanı bir sıra sənədlər imzalanıb. Qardaş ölkələrimiz arasında növbəti inkişaf mərhələsinin təməli qoyulub. Azərbaycan və Qazaxıstan parlamentlərarası münasibətləri də uzun illərdir formalaşıb. 2014-cü ildə Bakıda imzalanmış parlamentlərarası saziş əlaqələrimizin inkişafında xüsusi rola malikdir.

Çexiya Deputatlar Palatası sədrinin müavini Voytex Filip bildirib ki, 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, müsəlman Şərqində ilk demokratik dövlətin qurulması kimi xarakterizə olunur. Bu hadisə çox böyük əhəmiyyətə malikdir.

Bu gün Azərbaycan Respublikası ilə Çex Respublikası arasında münasibətlər strateji xarakter daşıyır. Qarşılıqlı münasibətlər bütün sahələrdə dayanıqlı şəkildə inkişaf etməkdədir. Eyni zamanda, biz yüksək səviyyəli əməkdaşlığımızı beynəlxalq təşkilatlar səviyyəsində də davam etdiririk.

Tacikistan Nümayəndələr Palatası sədrinin birinci müavini Aziz Abducabbor bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin və onun parlamentinin yaradılması böyük tarixi hadisə idi. İslam dünyasında ilk dəfə bu parlament qadınlara səsvermə hüququ verib. Hazırkı Milli Məclis 100 il bundan əvvəl əsası qoyulan prinsiplərə sadiq olduğunu göstərir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinin və parlamentinin inkişafında mühüm xidmətlərinin olduğunu qeyd edən Tacikistan Nümayəndələr Palatası sədrinin birinci müavini vurğulayıb ki, Azərbaycan hazırda iqtisadi, sosial, siyasi və digər sahələrdə böyük irəliləyişlər əldə etməklə dünyada layiqli yer tutub.

Azərbaycanın bu gün sürətlə inkişaf etdiyini qeyd edən Macarıstan Milli Assambleyasının sədr müavini Ksaba Hende bildirib ki, Azərbaycan ilə Macarıstan arasında ikitərəfli əlaqələr yüksək səviyyədədir. Xalqlarımız arasında tarixi köklərə malik əlaqələr mövcuddur. Sədr müavini, həmçinin Azərbaycan və Macarıstan parlamentləri arasında yaxşı əlaqələrin də olduğunu bildirib.

Monteneqro parlamentinin sədr müavini, parlamentin Azərbaycan ilə dostluq qrupunun rəhbəri Genci Nimanbequ çıxış edərək 100 il əvvəl yaradılan Azərbaycan Xalq Cümhuriyyəti dövründə atılan mütərəqqi addımları, o cümlədən qadınlara səsvermə hüququnun verilməsini yüksək qiymətləndirib. Vurğulayıb ki, bu gün Azərbaycanda mövcud olan tolerantlıq, multikultural mühit bir çox ölkələr üçün örnəkdir. Burada müxtəlif dinlərin, xalqların nümayəndələri sülh şəraitində birgə yaşayırlar. Sədr müavini Azərbaycanın bütün sahələrdə sürətlə inkişaf etdiyini vurğulayıb, ölkələrimiz və xalqlarımız arasında dostluğun daimi olacağına əmin olduğunu bildirib.

Özbəkistan Parlamenti Məclisinin sədr müavini Sarvar Otamuratov Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təbriklərini çatdıraraq qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti demokratik, dünyəvi dövlətin nümunəsi olub. Bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulan prinsiplər ölkənin bugünkü inkişafına da mühüm töhfələr verir. Bu gün Azərbaycanda irqindən, dinindən asılı olmayaraq bütün insanlar birgə mehriban şəraitdə yaşayırlar.

Böyük Britaniya parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Bob Bləkmən qeyd edib ki, Azərbaycan parlamentinin 100 illik yubileyinin qeyd edilməsi böyük tarixi əhəmiyyətə malik hadisədir. Azərbaycanda 100 il əvvəl qadınlara seçki hüququ verilib. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa oldu, lakin Azərbaycan xalqı 70 ildən sonra öz müstəqilliyini bərpa etdi.

Böyük Britaniyanın Azərbaycan ilə əməkdaşlığın səviyyəsindən məmnun olduğunu vurğulayan Bob Bləkmən deyib ki, Britaniya Azərbaycan iqtisadiyyatında yaxından iştirak edir. Bu gün Azərbaycan-Britaniya əlaqələri müxtəlif sahələrdə genişlənir. Keçirilən yüksək səviyyəli görüşlər də əlaqələrimizin möhkəmlənməsində mühüm rol oynayır.

**"Bu gün demokratik inkişaf nəticəsində Azərbaycan dünyaya açılan bir ölkəyə çevrilib. Ölkə mühüm beynəlxalq tədbirlərə, o cümlədən "Eurovision" mahnı müsabiqəsinə, Avropa Oyunlarına, Formula 1 yarışlarına uğurla ev sahibliyi edib. Mən son 8 il ərzində Azərbaycanda 6 dəfə olmuşam və ölkədəki inkişafın canlı şahidiyəm",** - deyə Bob Bləkmən vurğulayıb.

BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrinin yerinə yetirilməsinin vacibliyini ifadə edən Böyük Britaniya parlamentinin deputatı deyib: **"Uzun müddətdir davam edən bu münaqişə qısa müddətdə həll olunmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir".**

**"Yüz il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin yaradılması mühüm addım idi. Müsəlman aləmində ilk demokratik dövlət yaratmaqla Azərbaycan həm də müxtəlif dinlərin, xalqların nümayəndələrinin bir yerdə yaşamalarının nə qədər önəmli olduğunu nümayiş etdirdi",** - deyən Fransa-Azərbaycan Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Mansel vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlament 300-dən çox sənədi, o cümlədən qadınlara səsvermə hüququ verilməsinə dair qərarı təsdiq edib. Bu, bütün dünyaya bir nümunə olub.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə toxunan Jan-Fransua Mansel bu dövrdə parlamentin ilk sədri Əlimərdan bəy Topçubaşovun misilsiz xidmətlərindən söhbət açıb. O, Fransa-Azərbaycan əlaqələrinin inkişafında parlamentlərarası münasibətlərin xüsusi rol oynadığını vurğulayıb.

İndoneziya Nümayəndələr Palatası sədrinin müavini Aqus Hermanto, Polşa Senatı sədrinin müavini Adam Bielan, Serbiya parlamenti sədrinin müavini Veloyub Arsiç, Vyetnam Milli Assambleyası sədrinin müavini Uong Chu Luu, Avstriya Milli Şurasının üzvü, Avstriya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Barbara Krenn, Sloveniya Milli Assambleyasının xarici əlaqələr komitəsinin sədri Matyaz Nemek, Parlamentlərarası İttifaqda Malta parlamenti nümayəndə heyətinin rəhbəri Byron Camilleri, Slovakiya parlamentində Azərbaycan ilə dostluq qrupunun rəhbəri Peter Marçek, Litva Seyminin sosial işlər və əmək komitəsinin sədri Rimante Salaseviute, Livan Milli Assambleyasının üzvü, Livan-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Ayoub Hmayed, Birləşmiş Ərəb Əmirlikləri parlamentinin üzvü Jamal Al Hai, İordaniya parlamentinin deputatı Favzi Daoud, Hindistan parlamentinin deputatı Kambadahally Hanumappa Muniyappa, Avropa Parlamentinin üzvü Sajjad Kərim, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının baş katibi Məhəmməd Xouraiçi Niass, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində Türkiyə nümayəndə heyətinin rəhbəri Cemal Öztürk, İtaliya Deputatlar Palatasının üzvü Giovanni Russo çıxış edərək Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təbriklərini çatdırıblar.

Sonda Azərbaycanın dövlət himni səsləndirilib.

## Mərzuq Əli əl-Ğanim: Küveyt və Azərbaycan hər zaman bir-birinin yanındadır



Sentyabrın 21-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov bu səfərin dövlətlərimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. O bildirib ki, Azərbaycan Küveytlə münasibətlərini genişləndirməkdə maraqlıdır. Azərbaycanın və Küveytin dövlət başçıları arasında səmimi dostluq münasibətlərinin olduğunu deyən Milli Məclisin sədri vurğulayıb ki, siyasi əlaqələrimiz yüksək səviyyədədir. Lakin iqtisadi sahədə əməkdaşlığımızı daha da genişləndirmək üçün birgə işləmək lazımdır.

Parlamentlərarası münasibətlərdən danışan Milli Məclisin sədri dostluq qruplarının fəaliyyətini qənaətbəxş hesab edib.

Milli Məclisin sədri bildirib ki, Küveyt bütün beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyir.

Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanim deyib ki, Azərbaycan və Küveyt hər zaman bir-birinin yanındadır. Küveyt rəhbərliyi, parlamenti, hökuməti və xalqı Azərbaycanın mövqeyini dəstəkləyir. Azərbaycanın əldə etdiyi uğurlar Küveyt xalqını da sevindirir. O vurğulayıb ki, ölkəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən sülh yolu ilə həllinin tərəfdarıdır.

## NATO baş katibinin müavini: Azərbaycan NATO-nun etibarlı tərəfdaşıdır



Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan-NATO əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan nazir qeyd edib ki, Alyansın Cənubi Qafqazda təhlükəsizliyə dair tutduğu prinsipial mövqe regional sülh və sabitlik üçün mühüm əhəmiyyət kəsb edir.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Z.Həsənov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, eləcə də beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

NATO-nun Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirən general-polkovnik Z.Həsənov Alyansın bundan sonra da bu istiqamətdə səylərini əsirgəməyəcəyinə əminliyini ifadə edib.

BMT Təhlükəsizlik Şurasının "Qadın, Sülh və Təhlükəsizik" üzrə 1325 saylı Qətnaməsinin müzakirəsi zamanı nazir ölkəmizin də bu sənəddən irəli gələn tələblərin yerinə yetirilməsində maraqlı olduğunu qeyd edərək Azərbaycan Ordusunda on mindən çox qadının xidmət etdiyini diqqətə çatdırıb. Z.Həsənov əlavə edib ki, yaxın zamanlarda müdafiə nazirinin qadın hərbi qulluqçular və mülki işçilərin problemlərinin həlli üzrə referenti vəzifəsinin təsis edilməsi nəzərdə tutulur.

Azərbaycanın bu məsələdə mövqeyinin təqdirəlayiq olduğunu qeyd edən xanım R.Qotemöller ölkəmizin NATO-nun etibarlı tərəfdaşı olduğunu, terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına, o cümlədən sülhməramlılarımızın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri yüksək qiymətləndirib və Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanın NATO ilə "Sülh naminə tərəfdaşlıq" və digər proqramlar çərçivəsində əməkdaşlıq məsələləri, həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## BMT sədrinin xüsusi müşaviri Azərbaycanda dini-mənəvi sahədə görülən işlər barədə məlumatlandırılıb



Sentyabrın 21-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda səfərdə olan BMT sədrinin xüsusi müşaviri, Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri Abdulla Matuq ilə görüşüb.

QMİ-dən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə keçirilən iclasda iştirak etmək üçün ölkəmizə səfər edən qonaq şeyxülislamla görüşdən hədsiz məmnunluq hissi keçirdiyini bildirib. O, rəhbərlik etdiyi təşkilatın xətti ilə beynəlxalq miqyasda qaçqın, məcburi köçkünlərlə bağlı layihələr, xüsusilə Türkiyədə məskunlaşmış suriyalı qaçqınların vəziyyətinin yaxşılaşdırılması yönündə görülən əməli işlər barədə şeyxülislam A.Paşazadəyə məlumat verib.

Görüşdə Azərbaycanda dini-mənəvi sahədə görülən işlər barədə qonağı məlumatlandıran QMİ sədri Azərbaycan dövlətinin İslam dünyası ilə əlaqələrə verdiyi önəmdən, Prezident İlham Əliyevin qlobal miqyasda İslam həmrəyliyi ideyasının təşəbbüskarı olmasından, islamofobiyaya qarşı hər zaman etiraz səsinin ucaltmasından, habelə ölkəmizdə dini abidələrə, dindarların mənəvi ehtiyaclarının yüksək səviyyədə həyata keçirmələrinə dövlət səviyyəsində diqqət və qayğıdan bəhs edib.

A.Paşazadə Abdulla Matuqa qarşıdan gələn aylarda QMİ tərəfindən keçirilməsi nəzərdə tutulan beynəlxalq konfranslar barədə məlumat verib və həmin tədbirlərə A.Matuqu dəvət edib. Dəvəti qəbul edən qonaq, öz növbəsində, şeyxülislamı oktyabr ayında Küveytdə keçiriləcək nüfuzlu beynəlxalq tədbirə təşrif buyurmağa dəvət edib.

Azərbaycanda elmi əsaslarla, Şamaxı Astrofizika Rəsədxanası ilə əməkdaşlıqda tərtib olunan təqvimlərə əsasən tərtib olunan hicri təqvimləri barədə şeyxülislamın fikirlərini maraqla dinləyən qonaq bu təqvimləri etibarlı mənbə adlandırıb, siyasi və dini amillərə deyil, elmə əsaslanan nümunəvi bir iş olduğunu xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan-Küveyt mənəvi əlaqələri barədə də fikir mübadiləsi aparılıb.

## "ASAN xidmət" təcrübəsi Uqandada tətbiq olunacaq

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Uqanda Respublikası Dövlət Xidmətləri Nazirliyi arasında Anlaşma Memorandumu imzalanıb*



Sentyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Uqanda Respublikasının Dövlət Xidmətləri Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin mütərəqqi mexanizminin yaradılmasına dair əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, memorandum Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin Uqandanın dövlət xidmətləri naziri Vilson Muruli Mukasanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü zamanı imzalanıb.

Görüşdə Anlaşma Memorandumu çərçivəsində fəaliyyət planı üzrə əməkdaşlıq məsələləri, görüləcək tədbirlər müzakirə olunub.

Memorandumun məqsədi Uqanda Respublikasında dövlət xidmətlərinin göstərilməsi sisteminin təkmilləşdirilməsi, bu sahədə idarəetmə bacarıqlarının artırılmasıdır.

Sənəd Davamlı İnkişaf Məqsədləri və 2030 Gündəliyi kontekstində Afrika ölkələrinin inkişafı, nümunəvi idarəetmə və sosial-iqtisadi irəliləyiş baxımından xüsusi önəm daşıyır.

Səfər zamanı Uqanda nümayəndə heyətinin "ASAN xidmət" mərkəzləri, "ABAD" publik hüquqi şəxsi, səyyar "ASAN xidmət" təcrübəsi ilə tanışlığı nəzərdə tutulub. Həmçinin qonaqlar üçün Dövlət Agentliyinin müxtəlif struktur bölmələri tərəfindən təqdimatlar həyata keçiriləcək.

# Naxçıvanda yeni Asfalt-Beton Zavod Kompleksi istifadəyə verilib





Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni Asfalt-Beton Zavod Kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak edib.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov çıxış edərək deyib ki, muxtar respublikada aparılan geniş tikinti-quruculuq işləri yol təsərrüfatını da əhatə edib. Müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodlarının, qum-çınqıl karxanaları və bitum anbarlarının istifadəyə verilməsi, yeni texnikaların alınması yol tikintisinin əhatə dairəsini xeyli genişləndirib. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin maddi-texniki bazası möhkəmləndirilib, istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınması üçün yeni mexanizmlər alınıb. Yol infrastrukturu müasirləşdirilərkən diqqətdə saxlanılan əsas məsələlərdən bir də yerli tikinti materialları, xüsusilə də keyfiyyətli asfalt istehsalına nail olmaqdır. Yeni asfalt-beton zavodun istifadəyə verilməsi də məhz bu sahədə görülən işlərin davamıdır. Bəhruz Əsgərov yaradılan şəraitə görə muxtar respublikanın yol təsərrüfatı işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada yeni asfalt-beton zavod kompleksinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib, təşkilatçılara və əməyi olanlara təşəkkürünü bildirərək deyib: Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar bütün sahələrdə inkişafı təmin etmiş, əhalinin yaşayış səviyyəsi yaxşılaşmışdır. Bu gün Azərbaycan tranzit yükdaşımalar və turizm ölkəsinə çevrilmişdir. Bütün bunların əsasında isə hərtərəfli inkişafla yanaşı, həm də müasir yol infrastrukturu dayanır. Rahat və müasir yollar hər bir ölkənin tranzit keçid imkanlarını artırır. Eyni zamanda ölkənin yolları abaddırsa, o ölkəyə gələn qonaqların sayı da çox olur.

Ali Məclisin Sədri deyib: Ölkəmiz inkişaf etdikcə əhalinin rifah halı da yaxşılaşır. İnsanlar rahat və müasir avtomobillər alır, bütün sahələr üzrə istifadə olunan maşınların sayı artır. Avtomobillərin rahat işləməsi və uzun müddət istismar olunması isə yolların abadlığından asılıdır. Yolların abad olması üçünsə, müasir asfalt zavodları istifadəyə verilməli, keyfiyyətli məhsul istehsal olunmalıdır. Bu gün istifadəyə verilən asfalt-beton zavod kompleksi də müasir tələblər səviyyəsində qurulmuşdur. Yeni texnologiyalarla təmin olunan və kompüter sistemi ilə idarə olunan zavodda keyfiyyətli asfalt istehsal olunacaqdır.

Ali Məclisin Sədri deyib: Muxtar respublika ərazisində kifayət qədər daş və qum-çınqıl ehtiyatı vardır. Bu, keyfiyyətli asfalt istehsalında mühüm amildir. Yerli xammal əsasında işləyəcək asfalt beton zavod muxtar respublikada yol tikintisinə böyük təkan verəcəkdir. Hər il muxtar respublikada 100 kilometrlərlə yeni avtomobil yolları çəkilir. Mərkəzi yollarla yanaşı, muxtar respublikanın şəhər, rayon və kəndlərini birləşdirən avtomobil yolları da yenidən qurulur, keyfiyyətli asfalt örtük salınır. Sentyabrın 15-də Şərur rayonunda Xanlıqlar-Vərməziyar-İbadulla-Qışlaqabbas-Ərəbyengicə kənd avtomobil yolu istifadəyə verildi. Hazırda Culfa-Ordubad magistral avtomobil yolu, Babək rayonunun Cəhri-Yuxarı Buzqov və Ordubad rayonunun Dəstə kənd avtomobil yolları yenidən qurulur. Yollarda işlərin keyfiyyətlə aparılması üçün müasir asfalt-beton zavodun qurulmasına ehtiyac yaranmışdı. Çünki əvvəlki illərdə quraşdırılmış zavod öz istismar müddətini başa vurduğundan keyfiyyətli asfalt istehsal olunmurdu. Lakin yeni asfalt-beton zavodun qurulması muxtar respublikada bundan sonra da keyfiyyətli yolların çəkilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri asfalt-beton zavod kompleksinin qurulmasında göstərdikləri köməkliyə görə qardaş Türkiyə Respublikasının "Texno Asfalt" və "Aymak" şirkətlərinin nümayəndələrinə təşəkkürünü bildirib, kollektivə işlərində uğurlar arzulayıb.

Zavodda işlə təmin olunmuş gənc mütəxəssis Qənbər Əliyev minnətdarlıq edərək deyib: Muxtar respublikada yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması gənc mütəxəssislərin işlə təminatında mühüm rol oynayır. Bu gün hər birimizin həyatında unudulmaz gündür. Çünki müasir şəraiti olan zavodda işlə təmin olunmuşuq. Fəaliyyətimiz üçün lazımi şərait yaradılıb. Çalışacağıq ki, qarşımıza qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələk.

Türkiyənin "Texno Asfalt" şirkətinin servis müdiri Osman Şahin və satış müdiri Sultan Şahin əməkdaşlığa, fəaliyyətlərinə verilən qiymətə və göstərilən diqqətə görə minnətdarlıq ediblər. Sultan Şahin deyib ki, Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir. Bu, əlaqələrin inkişafında özünü göstərir. Naxçıvanda yeni asfalt-beton zavodun qurulmasında Türkiyə şirkətlərinin iştirak etməsi də qarşılıqlı əməkdaşlığın nəticəsidir.

Sonra xatirə şəkli çəkdirilib.

Ali Məclisin Sədri idarəetmə otağında zavodu işə salıb.

Məlumat verilib ki, 3 hektar sahəni əhatə edən zavodda Almaniya istehsalı avadanlıqlar quraşdırılıb. İstehsal müəssisəsi asfalt istehsalı sahəsindən və qum-çınqıl karxanasından ibarətdir. Avtomatik idarə olunan zavodda istehsal olunan məhsullar öz keyfiyyəti ilə seçilir. Zavodda enerji sərfiyyatı istehsal olunan asfaltın miqdarına uyğun tənzimlənir və əlavə enerji itkisinə yol verilmir. "Benninghoven" markalı yeni asfalt-beton zavod saatda 240 ton asfalt-beton, ölçüsü 25 millimetrədək olan 5 növdə 210-230 ton fraksiya istehsal etmək gücünə malikdir. Daşqırıcının istehsal gücü saatda 100-110 tondur. Zavodda tutumu 300 ton olan bitum ehtiyatı anbarı yaradılıb, hər birinin tutumu 50 ton olan 6 bitum çəni quraşdırılıb. 4 bitum çəninin quraşdırılması və əlavə 200 tonluq anbarın yaradılması istiqamətində isə işlər davam etdirilir.

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında bağlanmış Qrant müqaviləsinə əsasən alınmış Çin istehsalı 1 "DONGFENG" markalı özüboşaldan yük maşını, 1 "XCMGXC-760K" markalı kiçikhəcmli yükləyici və Belarus istehsalı 1 "AMKODOR-342B" markalı irihəcmli yükləyici Naxçıvan Muxtar Respublikasının Avtomobil Yolları Dövlət Agentliyinə verilib.

Ali Məclisin Sədri texnikaların açarlarını təqdim edib.

Zavodun həyətində ehtiyat hissələri üçün anbar və yardımçı bina tikilib, avtomobil dayanacağı istifadəyə verilib. Yardımçı binada mətbəx-yeməkxana, çilingər və digər xidməti otaqlar vardır.

Zavodun kollektivi ilə görüşən Ali Məclisin Sədri deyib: Burada rahat və sağlam iş şəraiti yaradılmışdır. Kollektiv yeni avadanlıqlardan istifadə qaydalarını öyrənməli, onlara vaxtında texniki qulluq göstərməli və keyfiyyətli məhsul istehsalına nail olmalıdır.

# Bakıda keçirilən cüdo üzrə dünya çempionatının ikinci gününə yekun vurulub






Sentyabrın 21-də Bakıda keçirilən cüdo üzrə dünya çempionatının ikinci günündə 66 kiloqram çəki dərəcəsində kişilər, 52 kiloqram çəki dərəcəsində isə qadınlar tatami üzərinə çıxıblar.

AZƏRTAC xəbər verir ki, ölkəmizi bu çəki dərəcələrində təmsil edən Nicat Şıxəlizadə mübarizəni 1/16 final mərhələsində, Buyankişiq Purevsuren isə 1/32 finalda dayandırıb.

Yarışların ikinci günündə hər iki çəki dərəcəsində qaliblər yaponiyalı idmançılar olublar.

Kişilərin mübarizəsində yaponiyalı Hifumi Abe dünya çempionu adını qazanıb. Qazaxıstan cüdoçusu Yerlan Serikzhanov ikinci yeri tutub. Koreya Respublikasının idmançısı Baul An və ukraynalı Georgi Zantaraia bürünc medal əldə ediblər.

Qadınların yarışında Yaponiya idmançıları Uta Abe və Ai Şişime müvafiq olaraq qızıl və gümüş medal qazanıblar. Braziliya təmsilçisi Erika Miranda və fransalı Amandine Buçard turniri üçüncü pillədə başa vurublar.

Sonra mükafatlandırma mərasimi keçirilib. Qaliblərə mükafatları gənclər və idman naziri Azad Rəhimov, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer təqdim edib.

Dünya çempionatının üçüncü günündə kişilər arasında 73 kiloqram, qadınlar arasında isə 57 kiloqram çəki dərəcəsində yarışlar keçiriləcək. Ölkəmizi bu çəki dərəcələrində Hidayət Heydərov, Rüstəm Orucov və İçinxorlo Munxtsedev təmsil edəcəklər.

Xatırladaq ki, sentyabrın 27-dək davam edəcək turnirdə 125 ölkədən 800-dək cüdoçu mübarizə aparır.

# Müasir Azərbaycanın qısa dövr ərzində əldə etdiyi nailiyyətlər Cümhuriyyət ənənələrinə sadiqliyin bariz nümunəsidir



Azərbaycan parlamentinin yaradılmasının 100 illiyinə həsr edilmiş təntənəli tədbirin keçirilməsi və burada çoxsaylı dost və qardaş ölkələrin, beynəlxalq təşkilatların nümayəndə heyətlərinin iştirakı özü artıq bir tarixi hadisə kimi qiymətləndirilməlidir. Çünki bu tədbir bir daha Azərbaycanın şanlı və qürurlu tarixinin, dövlətçilik tarixinin, dünəninin və bu gününün dünya ictimaiyyətinə çatdırılması üçün bir vəsilə oldu. Bütün dünya bir daha gördü ki, Azərbaycan xalqı yüksək dövlətçilik mədəniyyətinə, zəngin parlamentarizm tarixinə malik olan bir xalqdır və hələ 100 il bundan əvvəl Şərqdə ilk demokratik respublika qurmaqla, insan hüquq və azadlıqlarına təminat verməklə, qadınlara səsvermə hüququ tanımaqla bunu sübut edib. Bu mötəbər yubiley tədbirində çıxış edən Prezident İlham Əliyev Şərqdə ilk demokratik Cümhuriyyətin qurulmasını mühüm tarixi hadisə kimi səciyyələnirdi. Cümhuriyyətin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirdiyini vurğuladı, bu il "Cümhuriyyət İli" çərçivəsində dövlət səviyyəsində bir sıra tədbirlərin keçirildiyini diqqətə çatdırdı. Bununla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan Respublikasının keçdiyi müstəqillik yoluna nəzər salaraq olduqca əhəmiyyətli ümumiləşdirmələr apardı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib. O qeyd edib ki, dövlətimizin başçısı ölkəmizin 1993-cü ildən sonra istər siyasi-iqtisadi, istər humanitar, sosial sferada, istərsə də beynəlxalq münasibətlər sistemində necə böyük uğurlara imza atdığını diqqətə çatdırdı. Dağlıq Qarabağ probleminin həlli məsələsinin vacibliyinə toxunan Prezident İlham Əliyev vurğuladı ki, işğal olunmuş torpaqlarda bütün infrastruktur dağıdılıb, milli sərvətimiz talan olunub, xalqımıza qarşı hərbi cinayət - Xocalı soyqırımı törədilib. Ermənistan münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qətnamələrə məhəl qoymur, işğalçılıq siyasətini davam etdirir. Baxmayaraq ki, münaqişənin yeganə həlli yolu Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından keçir. **"Bununla bağlı Ermənistanın yeni rəhbərliyi öz siyasətində ciddi dəyişikliklər etməlidir",** - deyən Prezident İlham Əliyev bir daha qeyd etdi ki, Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Çünki Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır və ölkəmizin suverenliyindən kənar heç bir status alınmayacaq.

Milli Məclisin deputatı qeyd edib ki, bu fikirlər həm problemin həlli ilə bağlı Azərbaycanın qəti mövqeyinin bir daha bütün dünyaya bəyan edilməsi, həm də son zamanlar Ermənistan rəhbərliyinin təxribatçı çıxışlarına cavab kimi səsləndirildi. Azərbaycanın həyata keçirdiyi siyasət sayəsində regional və qlobal əhəmiyyətli layihələrin həyata vəsiqə qazandığı və bunun regiona sabitlik və rifah gətirdiyi, eyni zamanda, ölkəmizə strateji müttəfiqlər qazandırdığı, işğalçılıq siyasəti ucbatından Ermənistanın bu layihələrdən kənarda qaldığı regional gerçəklik kimi təsvir edildi. Bununla yanaşı, ölkəmizin demokratik dəyərlərə sadiq qalması, Azərbaycanda yüksək tolerantlıq mühitinin olması, multikulturalizm ənənələrinin yaşaması və inkişaf etdirilməsi, hüquqi dövlət quruculuğunda əldə edilən nailiyyətlər qonaqların diqqətinə çatdırıldı. Ölkəmiz bu siyasəti davam etdirəcək. Azərbaycanın qısa tarixi dövr ərzində əldə etdiyi nailiyyətlər, sözün əsl mənasında, müstəqil dövlət olması, daim öz milli maraqlarından çıxış edə bilmə cəsarəti nümayiş etdirməsi yüz il əvvəl qurulan Xalq Cümhuriyyəti ənənələrinə sadiq qalmasının bariz nümunəsidir.

# Şamaxının Göylər kəndində yeni tibb məntəqəsi istifadəyə verilib





Sentyabrın 21-də Şamaxı rayonunun Göylər kəndində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin təşəbbüsü və Yaponiyanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə inşa edilən tibb məntəqəsi açılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək tibb müəssisəsinin istifadəyə verilməsinin kənd həyatı üçün önəmli hadisə olduğunu vurğulayıb. İcra Hakimiyyətinin başçısı Prezident İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın diqqət və qayğısı ilə Azərbaycanın bütün regionlarında, o cümlədən Şamaxıda həyata keçirilən sosial layihələrdən danışıb.

Bildirilib ki, Yaponiyanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə bu günədək rayonda təhsil, səhiyyə və digər sahələr üzrə müxtəlif layihələr reallaşdırılıb. Göylər kəndində istifadəyə verilən tibb məntəqəsi də növbəti uğurlu layihələrdəndir. Yeni səhiyyə ocağı 15 min nəfərdən çox sakinə xidmət göstərəcək.

Yaponiya ilə Azərbaycan arasında dostluq münasibətlərinə və qarşılıqlı etimada əsaslanan əlaqələrdən danışan səfir Teruyuki Katori "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Azərbaycanın ayrı-ayrı bölgələrində səhiyyə, təhsil, ekologiya, sosial, infrastruktur və digər sahələrdə çoxsaylı layihələrin reallaşdırıldığını, bu istiqamətdə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini bildirib. Səfir təkcə Şamaxıda 6 layihənin həyata keçirildiyini söyləyib. **"Ümid edirəm ki, bu tibb ocağı uzun illər Göylər və qonşu kəndlərin sakinlərinə səhiyyə xidmətləri göstərəcək və insanlar layihədən faydalanacaqlar",** - deyən Teruyuki Katori "Regional İnkişaf" İctimai Birliyi tərəfindən işlərin nəzərdə tutulmuş müddətdən tez və keyfiyyətlə icrasından məmnun qaldığını bildirib.

"Regional İnkişaf" İctimai Birliyinin sədri Məhəmməd Abdullayev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulan kompleks tədbirlərin uğurla icrası nəticəsində insanların rifahının daha da yaxşılaşdığını, əhalinin məşğulluq səviyyəsinin yüksəldiyini, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişdiyini vurğulayıb. Qeyd olunub ki, Göylər kəndində yeni tibb məntəqəsinin açılması da regionların sosial-iqtisadi inkişafına yönəlmiş layihələrdəndir.

Bildirilib ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi fəaliyyətə başladığı dövrdən regionların sosial-iqtisadi inkişafına töhfə vermək məqsədilə dövlət qurumları, beynəlxalq təşkilatlar, xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirlikləri ilə yaxından əməkdaşlıq edərək, müxtəlif layihələr və tədbirlər həyata keçirir.

Kənd sakinləri həyata keçirilən layihələrin regionların inkişafı baxımından əhəmiyyətindən danışaraq, Azərbaycan Prezidenti İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Sonra qonaqlar tibb məntəqəsində yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, istifadəyə verilən tibb məntəqəsində stomatologiya, ginekologiya, terapiya və pediatriya şöbələri fəaliyyət göstərəcək.

# UNEC dəyərlərini təsdiqlədi




UNEC missiyasını layiqli şəkildə yerinə yetirmək və qarşısına qoyduğu strateji hədəfləri reallığa çevirmək məqsədilə Elmi Şurada öz dəyərlərini təsdiqləyib.

Regionun ən böyük iqtisadyönümlü ali təhsil müəssisəsinin bütün heyəti üçün vahid yanaşma formalaşdıran "UNEC-in dəyərləri" akademik azadlıq, akademik etika, layiqlilik, şəffaflıq, mükəmməllik, keyfiyyətlilik, iştirakçılıq, fərqliliklərə hörmət, cəmiyyətin mənafeyini düşünmək, ekoloji həssaslıq kimi yüksək mənəvi keyfiyyətləri özündə birləşdirib.

"UNEC-in dəyərləri"nə əsasən, tədqiqat, tədris və sosial xidmət fəaliyyətlərində elmi prinsiplərə sadiq olaraq, akademik azadlıq və akademik etika qorunur, müəlliflik hüquqlarına hörmətlə yanaşılır. Dəyərlərə görə, UNEC-də akademik və inzibati vəzifələrdə hər bir fərdə bərabər imkanlar yaradılır və layiq olana üstünlük verilir. Bu ali təhsil müəssisəsinin bütün fəaliyyəti daima ictimaiyyətə açıq şəkildə həyata keçirilir.

UNEC dəyərləri ehtiva edir ki, fəaliyyətlərində hər zaman daha mükəmməl olanı əldə etməyə çalışan UNEC ailəsi, həm də yüksək keyfiyyət prinsipinə sadiqdir. Səmərəli idarəetmənin bütün mərhələlərində UNEC üzvlərinin fəal iştirakı təmin edilir. Dəyərlərə görə, cəmiyyətin mənafeyini fəaliyyətinin önündə tutan UNEC, bu istiqamətdə bütün maraqlı tərəflərin fərqli fikirlərinə böyük önəm verir.

UNEC dünya universitetlərinin beynəlxalq reytinqlərində "Yaşıl universitet" statusunu qazanaraq, dayanıqlı inkişaf naminə ekoloji tarazlığın qorunması istiqamətində də inamla addımlayır.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

# 2018-ci ilin əvvəlindən bəri ölkə üzrə 200-dən çox məktəb tikilib və yaxud təmir olunub

*Regionlarda təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi istiqamətində işlər davamlı xarakter daşıyır*









(əvvəli ötən sayımızda)

Respublikamızda təhsil infrastrukturunun müasirləşdirilməsi proqramı çərçivəsində yeni layihə də uğurla icra edilir. Söhbət regionlarda kontingenti az olan təhsil ocaqları üçün modul tipli məktəb binalarının quraşdırılıb istifadəyə verilməsindən gedir. 2017-ci ildə respublikanın 40 rayonunda təxminən beş min şagirdi əhatə edən yüz modul tipli məktəb inşa edilib.

Quraşdırılması asan başa gələn modul tipli məktəblərin inşası 2018-ci ildə də davam etdirilir. Cari ildə Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlara əsasən, Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarında 1332 şagird yerlik modul tipli 22 məktəbin, Lənkəran, Lerik və Astara rayonlarında 860 şagird yerlik modul tipli 16 məktəbin, Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında 824 şagird yerlik modul tipli 12 məktəbin inşası nəzərdə tutulub. İndiyədək respublikanın ucqar kəndlərində 137 modul tipli məktəb tikilib. Ümumiyyətlə, ölkə ərazisində qəzalı məktəblərin sökülməsi və onların yerində yeni məktəblərin tikintisi proqramının gələn il başa çatdırılması hədəflənib.

## "BİLİK GÜNÜ"NDƏ CƏLİLABADIN 3 KƏNDİNDƏ YENİ MODUL TİPLİ MƏKTƏB İSTİFADƏYƏ VERİLİB

Sentyabrın 15-də Cəlilabad rayonunun Fərzili kənd ümumi orta məktəbi üçün inşa edilmiş 56, Çinar kənd ümumi orta məktəbi üçün tikilmiş 80 və Kürdlər kənd tam orta məktəbi üçün inşa edilmiş 96 şagird yerlik yeni modul tipli məktəb binaları müəllim və şagirdlərin ixtiyarına verilib.

Təhsil Nazirliyinin sifarişi ilə tikilən yeni məktəb binalarında şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün lazımi şərait yaradılıb. Yeni təhsil ocaqlarının açılış mərasimlərində çıxış edən Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov rayonun təhsil işçilərini, şagirdləri və onların müəllimlərini "Bilik günü" və yeni dərs ilinin başlanması münasibətilə təbrik edərək, onlara ən xoş arzularını çatdırıb.

Son 15 ildə Cəlilabadda 30-dan çox məktəbin tikilərək istifadəyə verildiyini vurğulayan N.Zeynalov təhsil infrastrukturunun yenidən qurulması çərçivəsində Abazallı, Kürdlər, Mirzəli, Çinar və Fərzili kəndlərində modul tipli məktəblərin inşasının başa çatdığını, Cəlilabad şəhərinin yeni massivində 624 şagird yerlik tam orta məktəbin, Türkelli, Qarağac, Lallar, Ağusəm, Hacıcavad, Ətcələr, Ləzran, Hacıməmmədli, Suluçeşmə və Oğrubulaq kəndlərində isə modul tipli daha 10 məktəbin tikintisinin nəzərdə tutulduğunu bildirib.

## SON 15 İLDƏ ASTARADA 40-DAN ÇOX MƏKTƏB TİKİLİB

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərə müvafiq olaraq Astara rayonunun Siyatük kəndində inşa edilmiş 56 şagird yerlik modul tipli yeni ibtidai məktəb binası "Bilik günü" müəllim və şagirdlərin ixtiyarına verilib. Təhsil Nazirliyinin sifarişi ilə inşa edilən yeni təhsil ocağı 6 otaqdan ibarətdir. Burada şagirdlərin təlim və tərbiyəsi üçün lazımi şərait yaradılıb.

Yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə çıxış edən Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev kənd sakinlərini, şagirdləri, onların müəllimlərini "Bilik günü" və əlamətdar hadisə münasibətilə təbrik edərək, onlara ən xoş arzularını çatdırıb.

Rayonda təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinin və təhsilin keyfiyyətinin yaxşılaşdırılmasının daim diqqət mərkəzində olduğunu vurğulayan Q.Ağayev son 15 ildə Astarada 40-dan çox yeni məktəb binasının tikildiyini və əsaslı təmir olunduğunu bildirib.

Qeyd olunub ki, bu gün icra nümayəndəliyinin ərazisində Süvi kənd tam orta və Deqədi kənd ümumi orta məktəblərindən sonra üçüncü yeni məktəb binası istifadəyə verilir. Hazırda Burzubənd kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə başlanıb, Doli və Şəmətük kənd ibtidai məktəblərinin yeni binasının tikintisi layihələşdirilir.

Tədbirdə Siyatük kənd ibtidai məktəbinin direktoru Aqil Əhmədov, kənd sakinləri Mahmud Məmmədov, Şakir Tahirov və başqaları çıxış edərək, yeni tədris ilinin başlanması münasibətilə məktəbin müəllim və şagirdlərini təbrik ediblər.

## BƏRDƏNİN QARATƏPƏ VƏ HACILAR KƏNDLƏRİNDƏ SAKİNLƏR YENİ MODUL TİPLİ MƏKTƏB BİNALARININ İSTİFADƏYƏ VERİLMƏSİNİN SEVİNCİNİ YAŞAYIBLAR

Yeni dərs ilinin ilk günündə Bərdə rayonunun Qaratəpə və Hacılar kəndlərində müəllim və şagirdlər ikiqat bayram sevinci yaşayıblar. Sentyabrın 15-də həmin kəndlərdə modul tipli məktəb binaları müəllim və şagirdlərin istifadəsinə verilib.

Bu münasibətlə keçirilən mərasimlərdə rayon icra hakimiyyətinin nümayəndələri, müəllim, şagird və valideynlər iştirak ediblər. Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev müəllim, şagird və valideynləri "Bilik günü" və məktəblərin istifadəyə verilməsi münasibətilə təbrik edib, ölkədə və rayonda gedən sosial-iqtisadi inkişafdan, təhsilin inkişafına göstərilən yüksək dövlət qayğısından, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb.

Bildirilib ki, respublikamızın hər yerində olduğu kimi, Bərdə rayonunda da təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər görülür, yeni məktəblər inşa edilir, mövcud məktəblər təmir olunur və ya yenidən qurulur. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, rayon üzrə ali məktəblərə qəbul olan gənclərin sayı hər il artır. Təkcə bu il rayonun orta ümumtəhsil məktəblərini bitirən 1159 nəfər məzundan 729 nəfəri ali məktəblərə qəbul olmaq üçün sənəd verib, 533 nəfər ali, 213 nəfər orta-ixtisas məktəblərinə qəbul olub. Qəbul imtahanlarında məzunlardan 106 nəfəri 500-dən yuxarı, o cümlədən 47 nəfəri 600-dən çox bal toplayıb.

Çıxışlardan sonra tədbir iştirakçıları məktəblərdə yaradılan şəraitlə tanış olublar. Hər biri 80 şagird yerlik olan məktəblər sinif otaqları, müəllimlər otağı, kitabxana və sanitar qovşaqdan ibarətdir. Məktəblərdə su-kanalizasiya xətləri çəkilib, istilik sistemi, nəzarət kamerası quraşdırılıb, həyətdə abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.

## REGİONLARDA MƏKTƏB TİKİNTİSİNƏ HEYDƏR ƏLİYEV FONDU BÖYÜK DƏSTƏK GÖSTƏRİR

Ölkəmizdə dövlətin məqsədyönlü təhsil siyasətinə, o cümlədən də regionlarda müasir infrastrukturun qurulmasına Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu böyük dəstək göstərir. Fond ölkəmizdə təhsillə bağlı önəmli layihələr həyata keçirir. Belə ki, son illərdə ölkəmizdə Heydər Əliyev Fondu tərəfindən "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb" layihələri uğurla reallaşdırılmaqdadır.

Sentyabrın 17-də Ağsu rayonunun ən iri yaşayış məntəqələrindən olan Bico kəndində Heydər Əliyev Fondu tərəfindən inşa olunan tam orta məktəb üçün yeni bina istifadəyə verilib. Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev mərasimi açaraq ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından, o cümlədən Ağsuda son illər ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tədris ocaqlarının tikilməsi, bu sahədə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr barədə ətraflı danışıb.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov şagird və müəllimləri yeni dərs ili, eləcə də yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edib. A.Ələkbərov iştirakçılara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını çatdırıb.

Fond tərəfindən minlərlə layihənin reallaşdırıldığını, bu layihələrin coğrafiyasının genişləndirilərək Azərbaycanın hüdudlarını aşdığını diqqətə çatdıran A.Ələkbərov fəaliyyətin mədəniyyət, təhsil, səhiyyə, tarixi abidələrin bərpası və digər istiqamətləri əhatə etdiyini söyləyib. Vurğulayıb ki, Heydər Əliyev Fondunun təhsil sahəsindəki layihələri çərçivəsində ölkəmizdə 400-dən çox məktəb binası inşa olunub. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi və bu layihə çərçivəsində görülən işlər Fondun təhsilimizə, gələcəyimizə göstərdiyi qayğının nəticəsidir.

Tədbirdə məktəbin direktoru Yaşar Qarayev çıxış edərək geniş şəraiti olan təzə məktəb binası ilə yanaşı, tədris ocağının zəruri avadanlıqlarla təchiz edildiyini diqqətə çatdırıb. Buna görə kollektiv və kənd sakinləri adından Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Qeyd edək ki, 2500 kvadratmetrdən çox sahəsi olan bina ikimərtəbəli, 220 şagird yerlikdir. Binada bütün zəruri inventar və avadanlıqlarla təchiz edilən 11 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, informatika kabineti, tibb otağı, emalatxana, hərbi hazırlıq otağı, akt zalı və yeməkxana var. Açıq havada 1000 kvadratmetr sahəsi olan idman meydançası qurulub.

Birnövbəli sistemlə məktəbdə 150 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 23 nəfər müəllim məşğul olur. Tədris Azərbaycan dilində aparılır.

**Mübariz ABDULLAYEV**

# Dünya şöhrətli Sadhquru Heydər Əliyev Mərkəzində mühazirə deyəcək




Noyabrın 10-da məşhur hindistanlı yoqin və mistik Sadhquru Heydər Əliyev Mərkəzində ilk dəfə mühazirə ilə çıxış edəcək.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, onun izləyiciləri ilə görüşü "Mənəvi quruculuq: gümrahlığın texnologiyaları" mövzusunda olacaq.

"Mənəvi quruculuq: gümrahlığın texnologiyaları" dərin və davamlı şəxsi transformasiyadan keçmək üçün qədim yoqa elmindən əldə edilən hərtərəfli bir sistemdir. Bu, insanın bədəni, ağlı, duyğuları və enerjisini pik nöqtədə, tam harmoniyada birləşdirmə üsuludur, hər hansı bir fiziki hazırlıq və ya yoqa haqqında bilik tələb etmir, asanlıqla istənilən həyat tərzinə inteqrasiya etmək mümkündür.

Mühazirə zamanı bədən və emosiyalara, insanın daxili enerjisinə müdrikliklə nəzarət etmək vasitələri barədə danışılacaq, auditoriyanın suallarına cavab veriləcək.

Tədbir çərçivəsində Sadhqurunun yeni kitabının imzalanma mərasimi və satışı da olacaq.

Hindistanın 50 nüfuzlu şəxsinin sırasında olan Sadhquru yoqin, mistik bestseller müəllifidir, özünü insanların mənəvi və fiziki rifahının yüksəlişinə həsr edib. O, müstəsna xidmətlərinə görə Hindistanın "Padma Vibhuşan" dövlət mükafatı ilə təltif olunub. Dərin, təsirli və məntiqli çıxışları Sadhquruya natiq kimi beynəlxalq nüfuz qazandırıb. Mövcud problemlər və dünya məsələlərinə dəqiq, qəti baxışı, insan rifahı mövzusuna öz yanaşması olan Sadhquru bir sıra beynəlxalq forumlarda, o cümlədən BMT-nin mənzil-qərargahında əsas, Dünya İqtisadi Forumunda isə mütəmadi çıxışçı olub, TED konfranslarında izləyicilərlə görüşüb. O, Oksford, Stenford, Harvard, Uorton, Yel universitetlərində, Massaçusets Texnologiya İnstitutunda və dünyanın digər qabaqcıl ali təhsil müəssisələrində çıxış edib. Sadhquru 1992-ci ildə insanların rifahına xidmət edən beynəlxalq İşa Fondunu yaradıb.

Sadhqurunun Heydər Əliyev Mərkəzində keçiriləcək mühazirəsinin biletlərini Mərkəzin kassasından, iTicket.az satış məntəqələri və saytından əldə etmək olar. Biletlərin qiyməti 10, 20, 50 və 100 AZN-dir.

Mühazirəçi ingilis dilində çıxış edəcək, Azərbaycan və rus dillərinə isə sinxron tərcümə olunacaq.

# "Nar"dan tələbələrə təqaüd proqramı

Özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində təhsil və maariflənmənin inkişafına xüsusi önəm verən "Nar" bu təşəbbüsü ilə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə davam edir. Elm və təhsilin inkişafına dəstəyilə seçilən "Nar" bu il Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan tələbələr üçün təqaüd proqramı elan edib. Proqram çərçivəsində 2018-2019-cu tədris ilində 5 tələbəyə aylıq təqaüd veriləcək. Təqaüd proqramı, ilkin olaraq, Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Gələcəkdə digər bölgələr və paytaxt Bakı universitetlərinin tələbələri üçün də aylıq təqaüdün verilməsi planlaşdırılır.

"Nar" təhsil və maariflənmənin inkişafına yönəlik KSM strategiyası çərçivəsində təhsil müəssisələri və müvafiq qurumlarla tərəfdaşlıq münasibətləri qurur, tələbələr üçün həvəsləndirici aksiyalar keçirir, müxtəlif bilik müsabiqələri və intellektual yarışların sponsoru qismində çıxış edir. KSM strategiyası çərçivəsində "Nar" həmçinin fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiya edilməsi istiqamətində müxtəlif uğurlu layihələr həyata keçirir.

"Nar"ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək mümkündür.

# Azərbaycanın ən sürətli mobil şəbəkəsinin adı açıqlandı






Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb.

Şirkət 2018-ci ilin I və II rübü üzrə nüfuzlu "Ən sürətli mobil şəbəkə üzrə Speedtest mükafatı"nın qalibi olub. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "Bakcell"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib.

Sınaq müddəti ərzində "Ookla" şirkəti ölkədə ən sürətli mobil şəbəkəni müəyyən etmək məqsədilə Azərbaycanın bütün mobil operatorlarının abunəçiləri tərəfindən iOS və Android platformalarında çalışan cihazlardan "Speedtest" mobil əlavəsi vasitəsilə həyata keçirilmiş sınaqları müqayisə edib. Nəticələrə əsasən, "Bakcell" şəbəkəsi bütün ölçülən kateqoriyalar üzrə ən yüksək "Speedtest" ballarını toplayıb. Bununla da təsdiq edilib ki, "Bakcell" şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. Mobil şəbəkələrin sınaq və təhlili sahəsində dünyanın ən nüfuzlu qurumu tərəfindən toplanmış bu məlumat Azərbaycandakı istifadəçilərin 18 000 ayrı-ayrı unikal cihaz vasitəsilə həyata keçirilmiş 80 000 sınaq (Speedtest platforması üzərindən) əsasında formalaşıb.

**"Biz qürur duyuruq ki, şəbəkə sınaqları və təhlili sahəsində dünya lideri tərəfindən şəbəkəmizin üstünlüyü bir daha da təsdiq edilib. "Bakcell" şəbəkəsi ölkənin mobil telekommunikasiya bazarında ən sürətli şəbəkədir və biz çox sevinirik ki, zəhmətimiz və gördüyümüz işlər abunəçilərimizə rahatlıq və məmnunluq gətirməkdədir. Bu liderliyi qorumaq və xidmətlərimizi daha da təkmilləşdirmək üçün əlimizdən gələni edirik. "Bakcell" bundan sonra da bazarda ən üstün və ən sürətli mobil şəbəkə ilə yanaşı, ən innovativ və misilsiz müştəri təcrübəsini öz abunəçilərinin ixtiyarına verməyə davam edəcək",** - deyə "Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Qeyd edək ki, sınaq müddəti ərzində hər üç yerli mobil operatorun nəticələri müqayisə olunub və "Bakcell" şirkəti LTE funksiyalı cihazlarda orta yükləmə sürəti 31.95 Mbps, orta məlumat göndərmə sürəti isə 11.75 Mbps olmaqla ümumi 27.93 bal (Speed Score(tm)) toplayaraq ölkədə ƏN SÜRƏTLİ mobil şəbəkə adını qazanıb.

**"Speedtest Intellingence" məlumatları veb və mobil "Speedtest" platformaları vasitəsilə milyonlarla abunəçi tərəfindən aparılmış sınaqlar vasitəsilə əldə olunur. Azərbaycanın bütün provayderləri üzrə məlumatlar ölkə ərazisində aparılan sınaqlara əsaslanaraq "Speedtest Intellingence"də öz əksini tapır. Biz təsdiq edirik ki, həmin nəticələr "Bakcell"in "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" olmasının bariz göstəricisidir. Bizim metodologiyalarımız bütün dünyada telekommunikasiya sənayesinin standartı kimi qəbul olunur və bununla da biz "Bakcell" şirkətinin bu mükafata tam layiq olmasını bir daha təsdiq edir və Azərbaycanın ən sürətli mobil şəbəkəsi statusunu qazanması münasibətilə "Bakcell" şirkətini təbrik edirik",** - deyə Ookla şirkətinin baş direktoru Douq Suttles bildirib.

Speedtest.net - İnternetdən istifadə üzrə bağlantı sürəti və gecikmə müddəti kimi əmsalların pulsuz təhlilini həyata keçirən veb xidmətdir. Bu xidmət Ookla şirkəti tərəfindən 2006-cı ildən pulsuz olaraq göstərilir. Bu günə qədər 21 milyarddan artıq sınaq ilə Ookla məlumatları dünyanın bütün ölkələrini əhatə edir. Ookla şirkətinin "Speedtest" mobil əlavəsi Google Play Store və App Store mobil dükanlarından 100 milyon dəfədən çox yüklənib.

7000-dən artıq baza stansiyası vasitəsilə "Bakcell" şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə ("Best in Test") adına layiq görülüb.

## İTMİŞDİR

Azərbaycan Dövlət İqtisad Universitetinin II kurs tələbəsi Babayev Caneil Roman oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Aqşin ŞAHİNOĞLU